№ 37 (1032) 14-19 sentyabr 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymət razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması uğurla həyata keçirilir



Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 saylı tam orta məktəbdə, 8 nömrəli məktəbdə olmuşdur. Zəngin təbii sərvətləri olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses ölkəmizin bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti və müasir tədris-təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 8 saylı tam orta məktəbdir. Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə 8 nömrəli məktəb 2010-2011-ci tədris ilində keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.

Prezident İlham Əliyevin ölkəmizdə təhsilə olan diqqət və qayğısının bariz nəticəsidir ki, son illər ərzində respublikamızın hər yerində olduğu kimi, paytaxtın mərkəzi rayonu olan Səbail rayonunda da təhsil müəssisələrinin əsaslı təmiri və təchizatı diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən rayonda bir yeni məktəb və uşaq bağçası inşa olunub, iki orta məktəb və bir musiqi məktəbinin binası sökülərək yenidən tikilib, 5 orta məktəb üçün əlavə tədris korpusları inşa edilib. Ümumilikdə, digər orta və məktəbəqədər təhsil müəssisələrində də əsaslı təmir işləri aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə, Sabunçu rayonunun Maştağa qəsəbəsində Cəfər Cabbarlı adına 187 nömrəli tam orta məktəbdə, Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə olmuş, həmin məktəblərdə yaradılan şəraitlə tanış olmuşdur.

# İlham Əliyevdən ATƏT-ə sərt çağırış: "Ermənistanda yeni diktatura rejiminin yaranmasına biganə qalmayın"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.

Tomas Qremingerin səfəri zamanı müzakirə ediləsi məsələlərin gündəliyinin geniş olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, əsas məsələlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Bu baxımdan, Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır.

Ümumiyyətlə, Azərbaycan tərəfində belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək.

Prezident İlham Əliyev Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına, Ermənistanın baş naziri tərəfindən siyasi rəqiblərinin həbsi haqqında verdiyi göstərişlərə, Ermənistanda yeni diktatura rejiminin yaranmasına ATƏT-in biganə qalmaması ilə bağlı müraciət edib.

Söhbət zamanı regional təhlükəsizlik, demokratik inkişaf, nəqliyyat, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Hesablama Palatasının (bundan sonra - Hesablama Palatası) statusunu, fəaliyyətinin hüquqi əsaslarını, idarəetmə və təşkilati strukturunu, habelə dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarətinin obyektləri və digər tərəflərlə münasibətlərini tənzimləyir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.0.1. **ali audit orqanı** - kənar dövlət maliyyə nəzarəti funksiyasını həyata keçirən dövlət qurumudur;

1.0.2. **kənar dövlət maliyyə nəzarəti** - bu qanunun 21.12-ci maddəsinin tələbləri nəzərə alınmaqla, bu qanunun 1.0.5-ci maddəsində nəzərdə tutulan kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən dövlət vəsaitinin və digər dövlət əmlakının istifadə edilməsinə ali audit orqanı tərəfindən həyata keçirilən müstəqil dövlət nəzarətidir;

1.0.3. **dövlət vəsaiti** - dövlət büdcəsinin, büdcədənkənar dövlət fondlarının, məqsədli dövlət fondlarının, publik hüquqi şəxslərin vəsaitləri, dövlət zəmanəti ilə alınan kreditlər, dövlət qrantları və texniki yardımlar, büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar fondlarının vəsaitidir;

1.0.4. **kənar dövlət maliyyə nəzarəti tədbirləri** - audit, analitik fəaliyyət və monitorinq formalarında həyata keçirilən kənar dövlət maliyyə nəzarətidir;

1.0.5. **kənar dövlət maliyyə nəzarətinin obyektləri** - dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və (və ya) bələdiyyələrin səhmi (payı) olan hüquqi şəxslərdir.

**Maddə 2. Hesablama Palatasının fəaliyyətinin hüquqi əsasları**

2.1. Hesablama Palatasının fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.

2.2. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti fəaliyyətini bu qanuna və Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) standartları əsasında Hesablama Palatası tərəfindən hazırlanan metodiki sənədlərə uyğun həyata keçirir.

**Maddə 3. Hesablama Palatasının statusu**

3.1. Hesablama Palatası Azərbaycan Respublikasının Konstitusiyasının 92-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən yaradılan, Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən kənar dövlət maliyyə nəzarətini həyata keçirən ali audit orqanıdır.

3.2. Hesablama Palatası müstəqil balansa, dövlət mülkiyyətində olan əmlaka, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamp və xüsusi blanklara malikdir.

**Maddə 4. Hesablama Palatasının fəaliyyət prinsipləri**

Hesablama Palatasının fəaliyyəti qanunçuluq, müstəqillik, kollegiallıq, şəffaflıq, obyektivlik, ədalətlilik və peşəkarlıq prinsiplərinə əsaslanır.

**Maddə 5. Hesablama Palatasının müstəqilliyi**

5.1. Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malikdir və onun fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.

5.2. Hesablama Palatası dövlət büdcəsindən ona ayrılmış vəsait həddində strukturunu və ştat sayını təsdiq edir.

5.3. Hesablama Palatası kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsi ilə əlaqədar olaraq kənar dövlət maliyyə nəzarəti obyektlərinin fəaliyyətini dayandıracaq müdaxilə etməməlidir.

**Maddə 6. Hesablama Palatasının fəaliyyət istiqamətləri**

6.0. Hesablama Palatasının fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.0.1. qanunla müəyyən edilmiş qaydada kənar dövlət maliyyə nəzarəti tədbirlərini həyata keçirir;

6.0.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair rəy verir;

6.0.3. həyata keçirdiyi kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri əsasında maliyyə intizamının gücləndirilməsi, maliyyə nəzarəti fəaliyyətinin planlaşdırılması məqsədilə mütəmadi təhlillər aparır, dövlət maliyyə idarəetməsinin və dövlət maliyyə nəzarətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, həmçinin dövlət vəsaitindən və digər dövlət əmlakından səmərəli və məqsədyönlü istifadə ilə bağlı tövsiyələr verir;

6.0.4. xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, ali audit orqanlarının beynəlxalq təşkilatlarına üzv olur.

**Maddə 7. Hesablama Palatasının vəzifələri**

7.0. Hesablama Palatası aşağıdakı vəzifələri yerinə yetirir:

7.0.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və müvafiq qanun layihələrinə rəy verir;

7.0.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrası barədə illik hesabatlara və müvafiq qanun layihələrinə rəy verir;

7.0.3. kənar dövlət maliyyə nəzarətinin obyektlərində aşağıdakı sahələrdə kənar dövlət maliyyə nəzarəti tədbirlərini həyata keçirir:

7.0.3.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) gəlirlərinin və kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən gəlirlərinin proqnozlaşdırılması, hesablanması, ödənilməsi və digər öhdəliklərin yerinə yetirilməsi;

7.0.3.2. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) xərclərinin və kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən xərclərinin proqnozlaşdırılması, hesablanması, icrası və digər öhdəliklərin yerinə yetirilməsi;

7.0.3.3. icmal büdcədən, o cümlədən dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrindən ayrılan vəsaitlərin qanunauyğun, məqsədyönlü, səmərəli və təyinatı üzrə istifadəsi;

7.0.3.4. dövlət əmlakının idarə edilməsi;

7.0.3.5. dövlət satınalmaları;

7.0.3.6. dövlət investisiyaları;

7.0.3.7. dövlət proqramlarına və layihələrinə ayrılmış vəsaitlərin istifadəsi;

7.0.3.8. qrantların və maliyyə (texniki) yardımlarının təyinatı üzrə və səmərəli istifadəsi;

7.0.3.9. ətraf mühitin mühafizəsi, təbii fəlakətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına ayrılmış vəsaitlərin istifadəsi;

7.0.3.10. daxili və xarici dövlət borcunun idarə olunması, dövlət zəmanəti ilə cəlb edilmiş borc öhdəliklərinin yerinə yetirilməsi, bağlanmış müqavilələrin şərtlərinə əməl olunması, xarici ölkələrə və şəxslərə verilən vəsaitlər üzrə öhdəliklərin icrası;

7.0.3.11. dövlət sifarişləri;

7.0.3.12. büdcədənkənar vəsaitlərin formalaşdırılması, yığılması və istifadəsi;

7.0.3.13. büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın) idarə olunması və ya idarəetməyə verilməsi;

7.0.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə Azərbaycan Respublikasının Milli Məclisinə və bu qanunda nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir;

7.0.5. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə Hesablama Palatasının kollegiyası tərəfindən qəbul edilmiş qərarlar əsasında qanunla müəyyən edilmiş müvafiq tədbirləri həyata keçirir;

7.0.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) və Azərbaycan Respublikasının Milli Məclisindən daxil olan dövlət maliyyəsi sahəsini tənzimləyən normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin layihələrinə rəy verir;

7.0.7. dövlət büdcəsinin icrasının təhlili ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yarımillik və illik məlumat verir;

7.0.8. öz fəaliyyətində dövlət, kommersiya, vergi, bank sirri, habelə məxfilik rejiminə riayət edir;

7.0.9. korrupsiyaya qarşı mübarizə sahəsində qanunamüvafiq tədbirlər həyata keçirir;

7.0.10. hüquq pozuntularına qarşı mübarizə sahəsində dövlət orqanları ilə qarşılıqlı fəaliyyət göstərir;

7.0.11. fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məclisinə illik hesabat təqdim edir;

7.0.12. qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

**Maddə 8. Hesablama Palatasının hüquqları**

8.0. Hesablama Palatası öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları həyata keçirir:

8.0.1. kənar dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə dövlət xəzinədarlığı məlumatlarına birbaşa çıxış imkanı əldə edir;

8.0.2. dövlət vəsaitinin xəzinə hesabına daxil olmasının və istifadəsinin təsdiq olunmuş göstəricilərə uyğunluğunu təhlil edir;

8.0.3. kənar dövlət maliyyə nəzarəti obyektlərindən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatları, habelə maliyyə, mühasibat, vergi və statistik uçotu hesabatlarını və zəruri sənədləri kağız və (və ya) elektron formada alır, kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində onların elektron informasiya sistemlərinə daxil olur;

8.0.4. kənar dövlət maliyyə nəzarəti obyektlərində aidiyyəti sahələrə daxil olur, müvafiq sahələrdə müşahidələr aparır, aktivlərin və öhdəliklərin mövcudluğunu yoxlayır, inventarizasiyasını aparır, məsul şəxslərdən və maliyyə nəzarətinin predmeti ilə əlaqədar digər tərəflərdən izahatlar və məlumatlar alır;

8.0.5. kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarını tətbiq edir;

8.0.6. kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə sorğular göndərməklə dövlət qurumlarından və bələdiyyələrdən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərdən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən kağız və (və ya) elektron formada məlumat alır;

8.0.7 dövlət sirri hesab edilən məlumatları, habelə bu qanunla müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin predmetinə aid olan kommersiya, vergi və bank sirrini təşkil edən məlumatları və fərdi məlumatları əldə edir;

8.0.8. kənar dövlət maliyyə nəzarəti tədbirlərinə qarşılıqlı razılıq əsasında dövlət orqanlarının nümayəndələrini, sərbəst auditorları, auditor təşkilatlarını, ekspert və mütəxəssisləri cəlb edir;

8.0.9. kənar dövlət maliyyə nəzarəti obyektindən kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində sənədlərin təsdiq edilmiş surətlərini və bu qanunla müəyyən edilmiş hallarda əslini götürür;

8.0.10. bu qanunla müəyyən edilmiş qaydada və müddətdə aşkar edilmiş kənarlaşma hallarına dair sənədlərə və başqa sübutlara müdaxilə olunmasının qarşısını almaq məqsədilə müvafiq qaydada rəsmiləşdirilməklə kassaları, anbar və arxivləri möhürləyir;

8.0.11. kənar dövlət maliyyə nəzarətinin obyektində mühasibat uçotunun aparılmaması, yaxud qanunvericiliyin tələblərinə uyğun təşkil edilməməsi səbəbindən zəruri məlumatları əldə etmək mümkün olmadıqda, kənar dövlət maliyyə nəzarətinin obyektindən mühasibat uçotunun təmin edilməsini tələb edir;

8.0.12. kənar dövlət maliyyə nəzarətinin obyektlərində daxili nəzarətin və daxili auditin təşkilinin vəziyyətini qiymətləndirir;

8.0.13. qanunla nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxır və inzibati tənbeh tətbiq edir;

8.0.14. kənar dövlət maliyyə nəzarətinin obyektlərinin vəzifəli şəxslərini Hesablama Palatasının kollegiya iclaslarına dəvət edir;

8.0.15. öz kadr potensialının gücləndirilməsi ilə bağlı tədbirləri həyata keçirir;

8.0.16. qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsi üçün qrantlar və ianələr alır;

8.0.17. dövlət qurumları ilə qarşılıqlı fəaliyyət göstərir;

8.0.18. qanunla nəzərdə tutulmuş digər hüquqları həyata keçirir.

**Maddə 9. Hesablama Palatasının metodiki sənədləri**

9.1. Hesablama Palatasının metodiki sənədləri Hesablama Palatasının fəaliyyətinin təşkili prosedurları ilə bağlı iş qaydalarını müəyyən edən və daxili prosedur qaydalarını tənzimləyən sənədlərdir.

9.2. Hesablama Palatasının metodiki sənədləri bu qanuna və ali audit orqanlarının beynəlxalq prinsiplərinə, standartlarına və təlimatlarına uyğun olaraq qəbul edilir.

9.3. Hesablama Palatasının metodiki sənədləri Hesablama Palatasının kollegiyası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

### II fəsil
### HESABLAMA PALATASININ TƏRKİBİ VƏ İŞİNİN TƏŞKİLİ

**Maddə 10. Hesablama Palatasının tərkibi**

Hesablama Palatasının tərkibi Hesablama Palatasının üzvlərindən ibarətdir.

**Maddə 11. Hesablama Palatasının üzvləri**

11.1. Hesablama Palatasının üzvləri Hesablama Palatasının sədri, sədr müavini və 5 auditordan ibarətdir.

11.2. Hesablama Palatası üzvlərinin səlahiyyət müddəti 7 ildir.

11.3. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin azı 63 deputatının səs çoxluğu ilə təyin edilir.

11.4. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikasının Milli Məclisinin dəvəti ilə Azərbaycan Respublikasının Milli Məclisinin və onun komitələrinin iclaslarında iştirak edirlər.

**Maddə 12. Hesablama Palatasının üzvlərinə dair tələblər**

12.1. Hesablama Palatasının üzvləri dövlət idarəçiliyi, dövlət nəzarəti, hüquq, iqtisadiyyat və maliyyə sahələrində 5 ildən az olmayaraq iş təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları ola bilərlər.

12.2. Hesablama Palatasının üzvləri başqa dövlətlər qarşısında öhdəlikləri olan, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə məhkum olunmuş şəxslər ola bilməzlər.

12.3. Hesablama Palatasının üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədri, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Baş prokuroru, Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin sədri və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri ilə, habelə bir-birləri ilə yaxın qohumluq əlaqəsində ola bilməzlər.

12.4. Hesablama Palatasının üzvlərinə aşağıdakılar qadağandır:

12.4.1. dövlət qurumlarında və yerli özünüidarəetmə orqanlarında əlavə ödənişli, seçkili və ya təyinatlı digər vəzifə tutmaq;

12.4.2. elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli fəaliyyət növü ilə məşğul olmaq;

12.4.3. şəxsən və ya digər şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

12.4.4. təşkilati-hüquqi formasından asılı olmayaraq təsərrüfat subyektlərinin idarəetməsində iştirak etmək;

12.4.5. xidməti istifadə üçün nəzərdə tutulan məlumat, maddi-texniki və maliyyə təminatı vasitələrindən özünün və ya digərlərinin şəxsi məqsədləri üçün istifadə etmək;

12.4.6. Hesablama Palatasının üzvü kimi funksional fəaliyyəti ilə bağlı etdiyi çıxışlar və ya yazdığı məqalələr üçün əlavə ödəniş almaq;

12.4.7. tətillərdə və dövlət qurumlarının işini pozan digər hərəkətlərdə iştirak etmək.

12.5. Hesablama Palatasının üzvləri səlahiyyətlərini icra etdiyi müddət ərzində heç bir siyasi partiyanın üzvü ola bilməzlər. Hesablama Palatasının üzvləri vəzifəyə təyin edildiyi zaman siyasi partiyanın üzvü olduqları hallarda həmin partiyalarda üzvlüklərinə xitam verməlidirlər.

12.6. Hesablama Palatası üzvlərinin rəsmi tədbirlər zamanı verilən hədiyyələr istisna olmaqla, vəzifə səlahiyyətlərinin icrası ilə bağlı fiziki və hüquqi şəxslərdən hədiyyə qəbul etməsi qadağandır. Rəsmi tədbirlər zamanı, o cümlədən Hesablama Palatasının üzvündən asılı olmayan səbəblərdən hədiyyə verildikdə, o, həmin hədiyyəni Hesablama Palatasına təhvil verməlidir.

12.7. Hesablama Palatasının üzvləri xidməti vəzifələrinin icrası zamanı yaranmış və ya yarana biləcək maraqların toqquşması hallarının qarşısının alınması üçün tədbirlər görməlidirlər.

**Maddə 13. Hesablama Palatasının üzvlərinin müstəqilliyi**

13.1. Hesablama Palatasının üzvləri funksional müstəqilliyə malikdirlər.

13.2. Hesablama Palatası üzvlərinin müstəqilliyi onların səlahiyyət müddətində siyasətsizləşdirilməsi, dəyişilməzliyi, Hesablama Palatasının üzvlərinin fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi ilə təmin olunur və onların statusuna uyğun maddi və sosial təminatlar verilir.

**Maddə 14. Hesablama Palatasının sədri**

14.0. Hesablama Palatasının sədri:

14.0.1. Hesablama Palatasına rəhbərlik edir və onun işini təşkil edir;

14.0.2. Hesablama Palatasının kollegiyasının iclaslarını çağırır və iclaslarına sədrlik edir;

14.0.3. Hesablama Palatasının üzvləri arasında iş bölgüsü aparır;

14.0.4. Hesablama Palatasının strukturunu, struktur bölmələrinin əsasnamələrini, ştat sayını, gəlir və xərclər smetası üzrə bölgü və dəyişiklikləri təsdiq edir;

14.0.5. Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə qurumunu yaradır;

14.0.6. Hesablama Palatasının fəaliyyəti ilə bağlı əmrlər, sərəncamlar, göstərişlər və tapşırıqlar verir;

14.0.7. Hesablama Palatasının Aparatının, struktur bölmələrinin və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun rəhbərlərini və işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onların həvəsləndirilməsi, kadr potensialının gücləndirilməsi, intizam məsuliyyəti məsələlərini həll edir;

14.0.8. Hesablama Palatasının rəylərini, hesabatlarını, məlumatlarını və təkliflərini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

14.0.9. Hesablama Palatasının səlahiyyətlərinin icrası ilə əlaqədar dövlət qurumlarının nümayəndələrinin, habelə müqavilə əsasında auditor təşkilatlarının, müstəqil auditorların, mütəxəssislərin və ekspertlərin cəlb edilməsi məsələlərini həll edir;

14.0.10. Hesablama Palatasının dövlət orqanları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətini təmin edir;

14.0.11. dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə Hesablama Palatasını təmsil edir;

14.0.12. Azərbaycan Respublikasının Milli Məclisinə Hesablama Palatasının fəaliyyəti haqqında illik hesabatı təqdim edir;

14.0.13. Hesablama Palatasının üzvlərinə dair etik davranış məsələlərinə baxan etika komissiyası yaradır;

14.0.14. qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 15. Hesablama Palatası sədrinin müavini**

15.1. Hesablama Palatası sədrinin müavini Hesablama Palatasının sədri tərəfindən müəyyən edilmiş iş bölgüsü əsasında fəaliyyət göstərir.

15.2. Hesablama Palatası sədrinin müavini:

15.2.1. Hesablama Palatasının sədri olmadıqda və ya vəzifələrini yerinə yetirə bilmədikdə onu əvəz edir;

15.2.2. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə müvafiq sənədlərin hazırlanmasına, cari sənədləşmələrin icrasına nəzarəti həyata keçirir;

15.2.3. Hesablama Palatasının iş planının layihəsi üzrə ilkin materialların, Hesablama Palatasının rəylərinin, hesabatlarının, təkliflərinin, məlumatlarının hazırlanmasına və Hesablama Palatasının sədrinə təqdim edilməsinə rəhbərlik edir;

15.2.4. Hesablama Palatasının sədrinin tapşırığına əsasən Hesablama Palatasını dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edir;

15.2.5. Hesablama Palatası sədrinin və kollegiyasının tapşırıqlarını yerinə yetirir.

**Maddə 16. Hesablama Palatasının auditorları**

16.1. Hesablama Palatasının auditorları Hesablama Palatasının sədri tərəfindən müəyyən edilmiş iş bölgüsü əsasında fəaliyyət göstərirlər.

16.2. Hesablama Palatasının auditorları:

16.2.1. iş bölgüsü əsasında onlara həvalə edilmiş fəaliyyət istiqamətlərinə rəhbərlik edirlər;

16.2.2. fəaliyyət istiqamətləri üzrə iş planlarının layihələrini hazırlayırlar;

16.2.3. rəhbərlik etdikləri fəaliyyət istiqamətləri üzrə metodiki sənədlərin layihələrini hazırlayırlar;

16.2.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinə rəhbərliyi həyata keçirirlər və rəhbərlik etdikləri fəaliyyət istiqamətləri üzrə kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə dair müvafiq sənədləri Hesablama Palatasının sədrinə təqdim edirlər;

16.2.5. Hesablama Palatasının sədrinin tapşırığına əsasən Hesablama Palatasını dövlət qurumları ilə, xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edirlər;

16.2.6. Hesablama Palatası sədrinin, sədr müavininin və kollegiyasının tapşırıqlarını yerinə yetirirlər.

**Maddə 17. Hesablama Palatası üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**

17.1. Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

17.1.1. vəzifədən azad olunmaq haqqında ərizə ilə müraciət etdikdə;

17.1.2. başqa vəzifəyə təyin edildikdə və ya seçkili orqana seçildikdə;

17.1.3. barələrində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

17.1.4. bu qanunun 12-ci maddəsində göstərilən tələblər pozulmaqla vəzifəyə təyin edildikdə;

17.1.5. əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar fasiləsiz olaraq altı aydan çox müddətə vəzifəsini yerinə yetirə bilmədikdə;

17.1.6. Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə;

17.1.7. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə qərarı ilə təsdiq edildikdə;

17.1.8. məhkəmə tərəfindən ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə;

17.1.9. bu qanunun 30.2.3-cü maddəsinə uyğun olaraq intizam məsuliyyətinə cəlb edildikdə;

17.1.10. vəfat etdikdə.

17.2. Bu qanunun 17.1.1-17.1.3-cü, 17.1.6-17.1.8-ci, 17.1.10-cu maddələrində nəzərdə tutulmuş hallarda Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında sərəncamı Azərbaycan Respublikası Milli Məclisinin Sədri verir.

17.3. Bu Qanunun 17.1.4, 17.1.5 və 17.1.9-cu maddələrində nəzərdə tutulmuş hallarda Hesablama Palatasının üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərarı Azərbaycan Respublikası Milli Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi qəbul edir.

**Maddə 18. Hesablama Palatasının kollegiyası**

18.1. Hesablama Palatasında Hesablama Palatasının üzvlərindən və Hesablama Palatası Aparatının rəhbərindən ibarət kollegiya yaradılır.

18.2. Hesablama Palatasının kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

18.3. Hesablama Palatasının kollegiyasının iclaslarında baxılan məsələlərin nəticələri kollegiya qərarları ilə rəsmiləşdirilir.

18.4. Kollegiya qərarları iclasda iştirak edən kollegiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Hesablama Palatası sədrinin səsi həlledicidir. Hesablama Palatasının üzvü səsvermə zamanı bitərəf qala bilməz.

18.5. Hesablama Palatasının kollegiyasında qəbul edilmiş qərarlar Hesablama Palatasının sədri tərəfindən imzalanır.

18.6. Hesablama Palatası sədrinin dəvəti ilə Hesablama Palatasının kollegiyasının iclaslarında kənar dövlət maliyyə nəzarəti obyektlərinin vəzifəli şəxsləri iştirak edə bilərlər.

18.7. Hesablama Palatasının kollegiyasının iclaslarında aşağıdakı məsələlərə baxılır və qərarlar qəbul edilir:

18.7.1. Hesablama Palatasının iş planlarının təsdiqi, onlara əlavə və dəyişikliklərin edilməsi;

18.7.2. Hesablama Palatasının hesabatlarının, rəylərinin və tövsiyələrinin təsdiq edilməsi;

18.7.3. Hesablama Palatasının metodiki sənədlərinin qəbul edilməsi;

18.7.4. kənar dövlət maliyyə nəzarəti tədbirlərinin proqramlarının, proqramlarına dəyişikliklərin və nəticələrinin təsdiq edilməsi;

18.7.5. kənar dövlət maliyyə nəzarətinin nəticələri üzrə qərarların qəbul edilməsi;

18.7.6. Hesablama Palatasının üzvlərinin və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun hesabatlarına baxılması;

18.7.7. Hesablama Palatasının fəaliyyət strategiyasının müəyyən edilməsi;

18.7.8. Hesablama Palatasının üzvlərinə tapşırıqların verilməsi, onların intizam məsuliyyətinə cəlb edilməsi.

18.8. Kollegiya üzvlərinin təklifləri ilə Hesablama Palatasının kollegiyasında bu qanunun 18.7-ci maddəsində göstərilən məsələlərdən başqa, digər məsələlərə baxıla və onlar barədə qərarlar qəbul edilə bilər.

**Maddə 19. Hesablama Palatasının Aparatı**

19.1. Hesablama Palatasının bu qanunla müəyyən edilmiş fəaliyyətinin təşkilati, metodoloji, informasiya, maddi-texniki və maliyyə təminatının həyata keçirilməsi məqsədilə Hesablama Palatasının Aparatı yaradılır.

19.2. Hesablama Palatasının Aparatı bu qanuna və Hesablama Palatası sədrinin təsdiq etdiyi əsasnaməyə müvafiq fəaliyyət göstərir.

19.3. Hesablama Palatasının Aparatının və Naxçıvan Muxtar Respublikası üzrə qurumunun əməkdaşları dövlət qulluqçusudurlar.

**Maddə 20. Hesablama Palatasının iş planı**

20.1. Hesablama Palatası kənar dövlət maliyyə nəzarətinin vaxtında, keyfiyyətlə və səmərəli keçirilməsini təmin etmək məqsədilə illik iş planını hazırlayır və öz fəaliyyətini illik iş planı əsasında həyata keçirir.

20.2. Hesablama Palatasının illik iş planı Hesablama Palatasının cari fəaliyyəti və bu qanunun 20.1-ci maddəsinə uyğun olaraq, kənar dövlət maliyyə nəzarəti tədbirləri üzrə görüləcək işləri özündə əks etdirir.

20.3. Hesablama Palatasının illik iş planı Hesablama Palatasının üzvlərinin təklifləri əsasında tərtib edilir.

20.4. İş planında nəzərdə tutulan kənar dövlət maliyyə nəzarəti tədbirləri risk qiymətləndirilməsi yolu ilə müəyyən edilir.

20.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), Azərbaycan Respublikası Milli Məclisinin və Hesablama Palatasının üzvlərinin sorğu və təklifləri əsasında iş planına əlavələr edilə bilər.

20.6. Hesablama Palatasının illik iş planının hazırlanması və icrası qaydaları Hesablama Palatasının metodiki sənədləri ilə tənzimlənir.

### III fəsil
### HESABLAMA PALATASININ KƏNAR DÖVLƏT MALİYYƏ NƏZARƏTİ FƏALİYYƏTİ

**Maddə 21. Kənar dövlət maliyyə nəzarəti tədbirinə hazırlıq və onun planlaşdırılması**

21.1. Kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsinə hazırlıq Hesablama Palatasının növbəti il üçün iş planının tərtib və müvafiq qaydada təsdiq olunması ilə başlanır.

21.2. Təsdiq edilmiş iş planında nəzərdə tutulmuş kənar dövlət maliyyə nəzarəti tədbirlərinin icra müddətindən asılı olaraq onların planlaşdırılması həyata keçirilir. Planlaşdırılma aşağıdakı fəaliyyət və prosedurlardan ibarətdir:

21.2.1. kənar dövlət maliyyə nəzarəti tədbiri keçiriləcək kənar dövlət maliyyə nəzarətinin obyekti və həmin obyektin fəaliyyəti barədə zəruri məlumatların əldə olunması;

21.2.2. kənar dövlət maliyyə nəzarəti tədbirinin məqsədinin və miqyasının müəyyənləşdirilməsi;

21.2.3. kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramının hazırlanması;

21.2.4. kənar dövlət maliyyə nəzarəti tədbirinin işçi planının tərtib olunması.

ardı 4-cü səhifədə

# İ.Əliyev: “Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasında rəsmi səfərdə olub.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmışdır.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Sentyabrın 6-da sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin bəyanatından:

Bizim siyasi dialoqumuz çox fəal aparılır. Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan Cənub Qaz Dəhlizinin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng “Şahdəniz” yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, biz, qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında “Tərəfdaşlıq prioritetləri” sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır.



Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda “Qətiyyətli dəstək” missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, “Qətiyyətli dəstək” missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.

# HALAL ZƏHMƏT, ALIN TƏRİ VƏ ŞÜKRANLIQ DUYĞULARI İLƏ YAŞAYANLAR

İmişli rayonuna yolunu salan hər kəs kənd və yaşayış məntəqələrində boş dayanan adam görə bilməz. Şəhərin gözü açılandan, toran qovuşana qədər yollar boyunca kənd təsərrüfatı texnikaları, tarlalarda, əkin sahələrində isə insan izdihamı görmək olar. Axı, bol məhsulun əsası indi qoyulur. Qış aylarında dincəlməyə, istirahət etməyə o qədər vaxt olacaq ki! Aran bölgəsinin arteriya damarı sayılan İmişlidə davamlı olaraq reallaşdırılan abadlıq-quruculuq tədbirləri iqtisadiyyatın, o cümlədən aqrar bölmənin inkişafına güclü təkan verib. Rayonun, demək olar ki, bütün yaşayış məntəqələrinin işıq, su, qaz, rabitə problemləri həll olunub, yollar, körpülər yenidən qurulub. Görülən tədbirlər özəl bölmənin canlanmasına, sahibkarlıq subyektlərinin sayının artmasına, yeni iş yerlərinin açılmasına yeni yollar və imkanlar açıb.

Qafqazın ən nəhəng sənaye obyekti sayılan İmişli şəkər zavodu işə düşdükdən sonra burada sənaye ilə kənd təsərrüfatı bir-biri ilə çulğalaşıb. Bu özünü statistik rəqəmlərdə də ifadə edir. 2018-ci ilin birinci yarısında rayonda, ümumilikdə, 172,7 milyon manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib ki, bunun 35,5 faizi sənayenin, 34,6 faizi kənd təsərrüfatının payına düşür. Mövsümlə işləyən sənaye və emal müəssisələrində yüzlərlə rayon sakini işlə təmin olunub.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən aqrar islahatlar İmişli rayonundan da yan keçməmiş, yerli sənaye müəssisələrinin xammal ehtiyaclarına uyğun şəkildə qurulması ixrac imkanlarının artmasına gətirib çıxarmışdır. İmişlidə cari ilin ötən ayları ərzində 10 min hektar torpaq sahəsinin təyinatı Nazirlər Kabinetinin qərarı ilə dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir.

Daha 5 min hektarla bağlı sənədləşmə işləri aparılır. Şoran düzlərdə, yabanı bitkilər bitən ərazilərdə geniş miqrasiya-irriqasiya tədbirləri aparılır.

Bu il rayon ərazisində 13.324 hektar buğda olmaqla, ümumilikdə, 19024 hektar sahədə taxıl əkilib, zəmilərdən 68.371 ton məhsul toplanılıb. Məhsuldarlıq buğda üzrə 37,3 sentner, arpa üzrə 32,3 sentner olub. Bundan başqa, 209 hektar sahədə kartof, 109 hektar sahədə şəkər çuğunduru, 322,4 hektar sahədə tərəvəz və 329,4 hektar sahədə bostan bitkiləri əkilib. Cari ildə rayonda 134 kümçüyə ipəkqurdu paylanmış, 10 tondan çox yaşıl barama tədarük edilmişdir ki, bu da ötən illə müqayisədə 25,6 faiz çoxdur.

Baramaçılarla söhbət zamanı dedilər ki, bu sahə həm gəlirli sahədir, həm də illərlə zəngin təcrübə qazanılıb. Rayonda yeni bağların salındığını, dövlət tərəfindən kömək və dəstəyin göstərildiyini dilə gətirən kümçülər bu işə marağın ildən-ilə artdığını vurğuladılar. İmişlidə kənd adamları fərdi təsərrüfatlarında meyvə, tərəvəz və bostan bitkiləri yetişdirirlər.

Rayonda elə bir ailə tapmaq çətindir ki, həyət-bacasında kənd təsərrüfatı məhsulları yetişdirməsin. İndi İmişlidə ilin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin edən müasir istixanalar fəaliyyət göstərir. Yerli ehtiyacların ödənilməsi, məhsuldarlığın yüksəldilməsi və ixrac potensialı üçün toxumçuluq təsərrüfatlarının sayı artırılır.

Rayon Kənd Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, arıçılığın inkişafının stimullaşdırılması barədə verilən sərəncamdan sonra bu sahəyə maraq artıb. Hazırda rayon üzrə arıçıların sayı 91 nəfərdir. Lakin dövlət dəstəyinə görə müraciət edənlərin sayı çoxdur. İmişlidə pambıqçılığın əvvəlki şöhrəti özünə qayıdır. Bununla əlaqədar son illər sistemli və ardıcıl tədbirlər görülür. Bu il İmişlidə 13,645 hektar sahədə pambıq əkini aparılıb. Becərmə işləri başa çatdırılıb, zərərvericilərə qarşı mübarizə tədbirləri həyata keçirilib.




İmişlidə pambıq yetişdirilməsi üçün həm əlverişli iqlim şəraiti, həm də çoxillik təcrübə var. Ötən əsrin 70-80-ci illərində bu rayonda ildə 50 min tona yaxın məhsul tədarük edilib. İndi nə dəyişib ki? Torpaq həmin torpaqlardır, insanlar da həmin insanlar. Üstəlik iqtisadi cəhətdən güclü, qüdrətli dövlətimiz var. Məhz son illər bu dəstəyin göstərildiyinə, maliyyələşmə və texnika ilə təchizatın yaxşılaşdığına görə pambıq əkininin həcmi artırılır, yüksək nəticələr əldə edilir.

Pambıq əməktutumlu sahə olduğundan kənd yerlərində əhalinin məşğulluq problemlərinin həll olunmasında müstəsna rol oynayır. Rayonun hər bir fermer təsərrüfatında 30-40 nəfər işçi çalışır, orta aylıq əməkhaqqı 300 manat təşkil edir. Tədarük təşkilatları fermerləri əməkhaqqını ödəmək üçün avans şəklində vəsaitlə təmin edirlər. Bu pullar ona görə verilir ki, əməkçilər cari ehtiyaclarını ödəyə bilsinlər.

Mövsüm zamanı Aran bölgəsinin üzləşdiyi ən ciddi problem suvarma suyu ilə təminatdır. Keçən il su çatışmazlığına görə bəzi əkin sahələrinə ciddi ziyan dəydi.

Rayon ərazisindən keçən R-2, Gavur arxı, Arazyanı, MTS, Qızılarx kanallarında, Araz çayının ikinci qolunda əsaslı lildən təmizləmə işləri görülmüşdür.

İmişli şəhərinin bütün küçə və məhəllələri içməli su ilə təmin olunmuşdur. Bundan başqa, qaçqın və məcburi köçkünlər üçün salınmış Yeni Bəhramtəpə qəsəbəsində 561 mexaniki su sayğacı quraşdırılıb. Kür və Araz çayları çirklənməyə məruz qaldığından, kənd yerlərində yaşayan əhalini nekoloji cəhətdən təmiz içməli su ilə təmin edilməsi ön plana keçib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq İmişli rayonunun 43 kəndində modul tipli sutəmizləyici qurğu quraşdırılıb.

Şahverdili, Göbəktala, Məmmədli və Rəsullu kəndlərinə yeni su xətləri çəkilib.

Rayonun iqtisadiyyatı güclənməklə yanaşı, sosial layihələrin icrası da uğurla davam etdirilir. İmişlidə “Asan həyat” kompleksi inşa edilir ki, hazırda burada tikinti işləri başa çatmaq üzrədir. Müasir üslubda tikilən 4 mərtəbəli bina həm şəhərə xüsusi gözəllik bəxş edəcək, həm də əhaliyə xidmətin səviyyəsini yüksəldəcək. Əlillər və şəhid ailələri üçün tikilən 6 mərtəbəli 54 mənzilli yaşayış binasında son tamamlama işləri görülür. Son 10 il ərzində rayonun ümumi təhsil məktəblərinin 41-ə yaxın tədris binası yenidən inşa edilib və ya əsaslı təmir olunub. Rayonun 37 yaşayış məntəqəsi tam qazlaşdırılıb. Qızılkənd və Aranlı kəndlərinə təbii qaz xəttinin çəkilişinə başlanılıb. Əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması və səhiyyə ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində zəruri tədbirlər görülür.

Bütün bunlar sonucda əhalinin həyat səviyyəsinin və yaşam tərzinin yüksəlməsinə gətirib çıxarır. Təkcə cari ilin 6 ayı ərzində İmişlidə 1501 yeni iş yeri açılıb ki, bunun 159-u daimi iş yerləridir.

Rayon üzrə orta aylıq əməkhaqqı 325 manatdan yüksəkdir. Şəhərlərdən fərqli olaraq kənd yerlərində yaşayanlar üçün bu həcmdə əməkhaqqı indiki dönəm üçün məqbul sayıla bilər. Belə ki, fərdi təsərrüfatlarda yetişdirilən məhsullar, həyət-bacalarda saxlanılan heyvan və quşlar, həmçinin digər mənbələr hesabına natural və pul şəklində əldə olunan gəlirlər də birbaşa kənd adamının güzarının yaxşılaşmasına təsir edir. Kəndin yazılmamış qanunu var; nə əkərsən, onu da biçərsən! Azərbaycan xalqında torpağa məhəbbət tanrıdan gəlir, genezisinə hopub. Üzü Dədə Qorquddan bu yana xalqımız əkib-becərib, ov ovlayıb mal-qara saxlayıb, qoyun-keçi bəsləyib, ilxı qovub. Əsrlərdən gələn bu yol heç vaxt tükənməyən, əbədiyyətə qədər uzanıb gedən bir yoldur. Çünki bu yol halal zəhmət, alın təri ilə yaşayıb şükranlıq duyğuları ilə ömür sürmək yoludur!

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

21.3. Bu qanunun 21.2.1-ci maddəsinə əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyəti haqqında məlumatları, o cümlədən onun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını, maliyyə-iqtisadi göstəricilərini və müvafiq hesabatlarını, uçot və hesabat işlərinin vəziyyətini, keçirilmiş maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə materialları, mövcud olan riskləri, fəaliyyətinə təsir edən daxili və xarici amilləri, dövlət proqramlarının və layihələrinin icrası barədə məlumatları toplayır və bu məlumatların təhlili nəticəsində kənar dövlət maliyyə nəzarəti tədbirinin əhatə edəcəyi məsələləri müəyyənləşdirir.

21.4. Bu qanunun 21.2.2-ci maddəsinə əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsində nail olunacaq hədəfi, eləcə də kənar dövlət maliyyə nəzarəti tədbirinin əhatə etdiyi dövrü, araşdırılacaq məsələləri və kənar dövlət maliyyə nəzarəti obyektlərini müəyyənləşdirir.

21.5. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti tədbirini bu qanunun 21.2.3-cü maddəsinə əsasən kollegiyanın təsdiq etdiyi proqram əsasında həyata keçirir. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramı iş bölgüsü əsasında funksional fəaliyyət istiqaməti üzrə kənar dövlət maliyyə nəzarəti tədbirinə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü tərəfindən tərtib olunur. İki və daha çox üzvün səlahiyyətinə aid məsələləri əhatə edən kənar dövlət maliyyə nəzarəti tədbiri üzrə isə vahid proqram təsdiq olunur.

21.6. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramında nəzarət tədbirinin keçirilməsinin əsası, nəzarət tədbirinin predmeti, keçirilmə (başlanma və başa çatdırılma) müddətləri, nəzarət tədbirini aparan qrupun tərkibi, nəzarət tədbiri ilə əhatə olunan dövr və obyektlərin siyahısı göstərilir. Kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilmə müddəti müəyyən edilərkən obyektin xüsusiyyətləri, nəzarət tədbirinin miqyası, proqram ilə əhatə olunan məsələlərin mürəkkəbliyi, nəzarət tədbiri ilə əhatə olunan dövr nəzərə alınır.

21.7. Kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramının icrası üçün bu qanunun 21.2.4-cü maddəsinə əsasən işçi planı hazırlanır. İşçi planı kənar dövlət maliyyə nəzarətini aparacaq qrupun rəhbəri və üzvlərinin cavabdehlik sahələrini və məsuliyyətlərini dəqiqləşdirməklə, nəzarət tədbiri ilə əhatə olunan məsələlərin müfəssəl siyahısını müəyyənləşdirir.

21.8. Hesablama Palatasının vəzifəli şəxsləri maraqlar toqquşmasına səbəb ola biləcək hallarda kənar dövlət maliyyə nəzarəti tədbirinə cəlb edilə bilməzlər. Maraqlar toqquşmasına səbəb ola biləcək hallar mövcud olduqda, Hesablama Palatasının vəzifəli şəxsi nəzarət tədbirinə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvünə məlumat verməli və bu tədbirin keçirilməsindən kənarlaşdırılmalıdır. Maraqlar toqquşmasına səbəb ola biləcək hallar barədə öncədən məlumatı olan Hesablama Palatasının vəzifəli şəxsi bilərəkdən məlumat verməməsinə görə intizam məsuliyyəti daşıyır.

21.9. Kənar dövlət maliyyə nəzarəti tədbirini aparan qrupun üzvlərinə Hesablama Palatasının sədri, o olmadıqda isə sədr müavini tərəfindən imzalanmış vəsiqə verilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin vəzifəli şəxslərinə vəsiqə göstərilmədən nəzarət tədbirinin keçirilməsi qadağandır. Vəsiqədə nəzarət tədbirinin adı, keçirilməsinin əsası, başlanması və başa çatdırılması tarixləri, qrup rəhbərinin və üzvlərinin vəzifəsi, soyadı, adı, atasının adı və nəzarət tədbiri ilə əhatə olunan dövr göstərilməlidir.

21.10. Kənar dövlət maliyyə nəzarəti tədbirinin başlanmasından ən azı beş iş günü əvvəl kənar dövlət maliyyə nəzarətinin obyektlərinə Hesablama Palatasının sədri, o olmadıqda isə sədr müavini tərəfindən imzalanmış bildiriş göndərilir. Bildirişdə nəzarət tədbirinin proqramının təsdiq edildiyi kollegiya qərarının tarixi və nömrəsi, nəzarət tədbirinin əsası, adı, əhatə olunan dövr və müddəti göstərilir.

21.11. Hesablama Palatası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğuları əsasında iş planından kənar qaydada kənar dövlət maliyyə nəzarəti tədbirini keçirir və nəticələri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat təqdim edir. Hesablama Palatası sorğu daxil olduqdan 3 iş günü müddətində sorğuya baxmalı və kollegiya qərarını qəbul etməlidir.

21.12. Hesablama Palatası dövlətin səhmi (payı) olan hüquqi şəxslərdə kənar dövlət maliyyə nəzarətini həyata keçirərkən dövlət büdcəsindən, büdcədənkənar dövlət fondlarından və məqsədli dövlət fondlarından onlara ayrılmış vəsaitlərin istifadə edilməsini yoxlayır.

21.13. Azərbaycan Respublikasının Mərkəzi Bankında kənar dövlət maliyyə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmaqla həyata keçirilir.

**Maddə 22. Hesablama Palatasının audit fəaliyyəti**

22.1. Hesablama Palatasının audit fəaliyyəti kənar dövlət maliyyə nəzarəti obyektlərinin gəlirlərinin, xərclərinin, əmlakının, öhdəliklərinin, zəmanətlərinin, digər aktiv və passivlərinin idarə olunmasının, maliyyə əməliyyatlarının, maliyyə, mühasibat, vergi və statistika uçotu hesabatlarının düzgünlüyünün və tamlığının, iqtisadi və maliyyə fəaliyyətinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi, daxili nəzarət sistemlərinin qiymətləndirilməsi məqsədilə həyata keçirilir.

22.2. Hesablama Palatası audit fəaliyyətini aşağıdakı audit növləri əsasında həyata keçirir:

22.2.1. maliyyə auditi (maliyyə əməliyyatları və hesabatlarının uyğunluğunun, düzgünlüyünün, dürüstlüyünün və tamlığının müəyyənləşdirilməsi, maliyyə idarəçiliyi, daxili nəzarət və əlaqəli informasiya sistemlərinin qiymətləndirilməsi);

22.2.2. səmərəlilik (performans) auditi (proqram, layihə, fəaliyyət, əməliyyat, idarəetmə və informasiya sistemlərinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi);

22.2.3. uyğunluq auditi (kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən qüvvədə olan hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi);

22.2.4. digər audit növləri.

22.3. Auditlərin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Hesablama Palatasının metodiki sənədləri ilə tənzimlənir.

22.4. Audit başlamazdan əvvəl audit qrupu kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsi ilə bağlı bu qanunun 21.9-cu maddəsində nəzərdə tutulan vəsiqəni, audit qrupunun üzvlərinin xidməti vəsiqələrini kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edir, auditin hüquqi əsasları, predmeti, müddəti, audit zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat verir.

22.5. Audit qrupu Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti sahəsinə aid olmayan məsələləri yoxlaya və həmin məsələlərlə bağlı materiallarla tanış ola bilməz.

22.6. Audit qrupunun fəaliyyətinə nəzarəti auditə rəhbərlik edən Hesablama Palatasının üzvü həyata keçirir.

22.7. Kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən audit qrupuna zəruri şərait yaradılmalı, məsul şəxslər ayrılmalı, auditin predmetinə aid tələb olunan digər tədbirlər həyata keçirilməlidir. Audit qrupu texniki vasitələrdən (audio, video və foto avadanlıqlarından, surətçıxaran və skanerlərdən) istifadə etməzdən əvvəl bu barədə kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya onun nümayəndəsinə yazılı formada və onların imzası alınmaqla məlumat verməlidir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya onun nümayəndəsi məlumatın alınması faktını imzası ilə təsdiqləməkdən imtina etdikdə audit qrupu tərəfindən imtina aktı tərtib edilir və bu barədə hesabatda müvafiq qeydlər aparılır. Bu hal audit qrupunun texniki vasitələrdən istifadə etmək hüququnu aradan qaldırmır.

22.8. Audit zamanı ciddi maliyyə pozuntuları, habelə sənədlərin saxtalaşdırılması və təhrif olunması halları aşkar edilərsə, belə halların gizlədilməsinin və ya davam etməsinin qarşısının alınması məqsədilə kənar dövlət maliyyə nəzarəti obyektinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə audit qrupu tərəfindən sənədlərin adı və vərəqlərinin sayı göstərilməklə akt tərtib edilir və onun əsasında sənədlərin əsli götürülür. Bu zaman aktda müvafiq qeydlər aparılmaqla, həmin sənədlərin təsdiq edilmiş surətləri, habelə siyahısı kənar dövlət maliyyə nəzarətinin obyektində saxlanılır. Aktın bir nüsxəsi kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi aktı qəbul etməkdən imtina etdikdə bu barədə audit qrupu tərəfindən imtina aktı tərtib edilir və auditin yekunu üzrə hesabatda müvafiq qeydlər aparılır.

22.9. Audit zamanı aşkar edilmiş kənarlaşma hallarına dair sənədlərə və sübutlara müdaxilə olunmasının qarşısını almaq məqsədilə audit qrupu tərəfindən kənar dövlət maliyyə nəzarəti obyektinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə akt tərtib edilməklə kassalar, anbar və arxivlər möhürlənir. Möhürlənmiş kassalar, anbar və arxivlərdən möhürün açılması hüququ audit qrupuna aiddir və bu barədə həmin aktda müvafiq qeydlər aparılır. Aktın bir nüsxəsi kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbərinə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi aktı qəbul etməkdən imtina etdikdə, bu qanunun 22.8-ci maddəsinin dördüncü cümləsində müəyyən edilmiş tədbirlər görülür. Kassalar, anbar və arxivlərin möhürlənməsi həmin sahələrdə nəzarət tədbiri bitdikdən və nəticəsi aktlaşdırıldıqdan sonra açılmalıdır. Möhürlənmə auditin başa çatması tarixindən artıq müddətə davam edə bilməz.

22.10. Bu qanunun 22.8-ci və 22.9-cu maddələrində göstərilən hallarda audit qrupu kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyəti ilə bağlı vəzifələrinin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə şərait yaratmalı və buna maneə törətməməlidir.

22.11. Audit qrupu tərəfindən auditə dair hesabat tərtib edilir. Audit zamanı aşkar edilmiş faktlar hesabatda aydın və dəqiq göstərilir. Hesabat audit qrupunun bütün üzvləri tərəfindən imzalanır və bir nüsxəsi kənar dövlət maliyyə nəzarətinin obyektinə təqdim edilir.

22.12. Kənar dövlət maliyyə nəzarətinin obyekti auditə dair tərtib edilmiş hesabatla tanış olmalı, bununla əlaqədar qeyd, irad və rəyini hesabatın təqdim edildiyi tarixdən 20 gün müddətində yazılı şəkildə bildirməlidir. Kənar dövlət maliyyə nəzarəti obyektinin qeyd, irad və rəyi hesabata əlavə olunur. Kənar dövlət maliyyə nəzarəti obyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi hesabatı qəbul etməkdən və qeyd, irad və rəy bildirməkdən imtina etdikdə, bu barədə audit qrupu tərəfindən hesabatda müvafiq qeydlər aparılır və hesabatın surəti onun alınmasını təsdiq edən istənilən vasitə ilə kənar dövlət maliyyə nəzarətinin obyektinə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən audit hesabatı ilə bağlı qeyd, irad və rəyin bildirilməsinin son günündən 5 iş günü ərzində hesabatla bağlı qeyd, irad və rəyin Hesablama Palatasına təqdim edilməməsi kənar dövlət maliyyə nəzarətinin obyektinin rəhbəri tərəfindən həmin hesabatla razı olma kimi qiymətləndirilir.

22.13. Auditin nəticələri üzrə auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü tərəfindən auditor hesabatı tərtib edilir. Auditor hesabatı auditə rəhbərliyi həyata keçirən Hesablama Palatası üzvünün auditin nəticələri əsasında qiymətləndirici qənaətlərini və mövqeyini əks etdirən, rəyini ifadə edən sənəddir. Auditor hesabatında kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsinin əsası, məqsədi, predmeti və obyekti, öyrənilmiş sənədlərin, alınması barədə müraciət edilmiş və təqdim edilməsindən imtina edilmiş sənədlərin siyahısı, auditin keçirilməsinə maneçilik törədilməsi halları və onların baş verməsində təqsirkar olan vəzifəli şəxslər, audit zamanı aşkar edilmiş pozuntular barədə məlumatlar əks olunur. Auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü auditor hesabatında nəzarət tədbirinin predmetinə aid sahədə qanunvericiliyin təkmilləşdirilməsi, funksional idarəetmədə mövcud olan boşluqların aradan qaldırılması, hüquq pozuntuları nəticəsində dövlətə dəyən zərərin ödənilməsi, qanunsuz xərclər və cinayət tərkibinin olduğu ehtimal edilən faktlar üzrə materialların hüquq mühafizə orqanlarına göndərilməsi, dövlət vəsaitindən və digər dövlət əmlakından səmərəsiz və təyinatdan kənar məqsədlərlə istifadəsinin qarşısının alınması üçün görülməli olan tədbirlərin xarakteri və məzmunu barədə təkliflərini bildirir və sonda aşkar edilmiş faktlara və kənar dövlət maliyyə nəzarətinin obyektinin fəaliyyətinə auditor qiymətləndirməsini həyata keçirir və müvafiq təkliflərini verir.

22.14. Auditə rəhbərliyi həyata keçirən Hesablama Palatasının üzvü auditor hesabatını Hesablama Palatasının kollegiyasının müzakirəsinə çıxarılması üçün Hesablama Palatasının sədrinə təqdim edir. Hesablama Palatasının kollegiyası auditor hesabatına münasibət bildirir, aşkar edilmiş nöqsan, çatışmazlıq və hüquq pozuntularının aradan qaldırılması, tələblərin, tövsiyələrin və təkliflərin yerinə yetirilməsi üzrə aidiyyəti tərəfləri müəyyənləşdirir və müvafiq qərarlar qəbul edir.

22.15. Audit qrupunun üzvləri auditin nəticələri üzrə Hesablama Palatasının kollegiyası tərəfindən qərar qəbul edilənədək həmin nəticələri elan edə bilməzlər.

22.16. Hesablama Palatası tərəfindən auditin nəticələri barədə Azərbaycan Respublikasının Milli Məclisinə məlumat verilir. Audit müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında, habelə onun yaratdığı dövlət orqanlarında (qurumlarında) həyata keçirildikdə nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) da məlumat təqdim olunmalıdır.

**Maddə 23. Hesablama Palatasının analitik fəaliyyəti**

23.1. Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti ilə əlaqədar analitik fəaliyyəti aşağıdakı formada həyata keçirilir:

23.1.1. icmal büdcənin, o cümlədən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinin, gəlirlərinin, xərclərinin, habelə bələdiyyə gəlirlərinin və xərclərinin proqnozlaşdırılması, hesablanması və icrası, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrasına dair layihələrin və hesabatların, müvafiq büdcələrdən ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsinin təhlili;

23.1.2. icmal büdcədən, o cümlədən dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarından (təsisatlarından) maliyyələşmənin aparılması, büdcə vəsaitlərinin xəzinə hesabına vaxtında daxil olması və müvafiq göstəricilərə uyğunluğu, büdcə vəsaitlərinin müvafiq hesablarda hərəkəti barədə kredit təşkilatlarından alınan məlumatların və dövlət borclanmalarının təhlili, Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim olunmuş dövlət maliyyəsi sahəsini tənzimləyən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin layihələrinə rəy verilməsi;

23.1.3. kənar dövlət maliyyə nəzarətinin məqsədləri çərçivəsində müəyyən məsələ və mövzu üzrə təhlil;

23.1.4. kənar dövlət maliyyə nəzarəti obyektlərinin fəaliyyətləri üzrə maliyyə hesabatlarının təhlili.

23.2. Bu qanunun 23.1.1-23.1.3-cü maddələri ilə müəyyən edilmiş analitik fəaliyyətin nəticələrinə Hesablama Palatasının kollegiyasında baxılır. Analitik fəaliyyətin nəticələri qərar, rəy, arayış, təklif və tövsiyələr formalarında rəsmiləşdirilir.

**Maddə 24. Hesablama Palatasının büdcə prosesində iştirakı**

24.1. Hesablama Palatası bu qanunla və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) layihələrinə, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin icrasına, müvafiq qanunların layihələrinə və hesabatlara dair rəy verir.

24.2. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə bu qanuna və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rəy verilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisindən Hesablama Palatasına daxil olduqdan sonra Hesablama Palatası 15 gün müddətində rəy verir və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

24.3. Bu qanunun 24.2-ci maddəsi Hesablama Palatası tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim edilmiş büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə rəy verilməsi qaydalarına da şamil olunur.

24.4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib olunmuş dövlət büdcəsinin icrası barədə aylıq, rüblük və illik hesabatların və dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar və dövlət xəzinədarlığı tərəfindən dövlət büdcəsinin gəlirləri barədə hesabatların və digər zəruri sənədlərin bir nüsxəsi kağız və elektron daşıyıcılarda Hesablama Palatasına təqdim edilir.

24.5. Dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi rəy verilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisindən daxil olduğu gündən 10 gün müddətində Hesablama Palatası onlara rəy verir və öz rəyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

24.6. Bu qanunun 24.5-ci maddəsi Hesablama Palatası tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq olunmaq üçün təqdim edilmiş büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin icrası barədə illik hesabat və qanun layihələrinə də şamil olunur.

24.7. Hesablama Palatası tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin layihəsinə, eləcə də büdcəsinin icrası barədə hesabata rəyin verilməsi müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş qaydalara uyğun həyata keçirilir.

**Maddə 25. Hesablama Palatasının monitorinq fəaliyyəti**

25.1. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti obyektlərinin maliyyə-təsərrüfat fəaliyyəti üzrə ayrı-ayrı əməliyyatlarının və kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə Hesablama Palatasının kollegiya qərarlarının yerinə yetirilməsi vəziyyətinin müəyyən edilməsi, mütəmadi və davamlı müşahidə aparılmaqla dövlət qurumlarının elektron informasiya sistemləri üzrə məlumatların toplanması məqsədilə monitorinq fəaliyyətini həyata keçirir.

25.2. Kənar dövlət maliyyə nəzarəti obyektindən monitorinqin predmeti üzrə bu qanunla müəyyən edilmiş qaydada müvafiq məlumatlar əldə edilə və həyata keçirilmiş əməliyyatlar üzrə yerində baxış keçirilə bilər.

25.3. Monitorinqin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Hesablama Palatasının metodiki sənədlərinə uyğun olaraq həyata keçirilir.

**Maddə 26. Kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı cinayət tərkibinin əlamətləri olan hüquqpozmalar aşkar edildikdə həyata keçirilən tədbirlər**

26.1. Kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı cinayət tərkibinin əlamətləri olan hüquqpozmaların aşkar edildiyi ehtimal edildikdə, kənar dövlət maliyyə nəzarəti tədbirinə rəhbərliyin həvalə edildiyi Hesablama Palatasının üzvü auditor hesabatı tərtib edir və müvafiq materiallarla birlikdə Hesablama Palatası kollegiyasının müzakirəsinə çıxarılması üçün Hesablama Palatasının sədrinə təqdim edir.

26.2. Hesablama Palatasının kollegiyası aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərini ehtimal edərsə, kənar dövlət maliyyə nəzarətinin nəticələri barədə müvafiq materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

**Maddə 27. Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə baxılması**

27.1. Hesablama Palatası tərəfindən aparılan kənar dövlət maliyyə nəzarəti tədbirlərinin nəticələrinə Hesablama Palatasının kollegiyasında baxılır.

27.2. Hesablama Palatasının kollegiyasında kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsi üzrə auditor hesabatının təsdiq edilməsi və ya təsdiq edilməməsi barədə qərarlardan biri qəbul edilir.

27.3. Auditor hesabatının təsdiq edilməsi barədə Hesablama Palatasının kollegiya qərarında aşağıdakılar göstərilir:

27.3.1. qərarın tarixi və nömrəsi;

27.3.2. Hesablama Palatasının adı, kənar dövlət maliyyə nəzarəti obyektinin adı;

27.3.3. pozuntuların təfərrüatı, əsaslandırıcı sübutlar və pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

27.3.4. aşkar olunmuş pozuntuların aradan qaldırılması üçün görülməli tədbirlər;

27.3.5. kollegiya qərarının icrasına nəzarətin həvalə edildiyi Hesablama Palatasının üzvü;

27.3.6. qərardan şikayət vermə müddəti və qaydası.

27.4. Hesablama Palatasının kollegiyasının iclasında auditor hesabatının təsdiq edilməməsi üçün aşağıdakılar əsas ola bilər:

27.4.1. auditor hesabatının kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramında təsbit olunmuş tələblərə uyğunsuzluğu;

27.4.2. kənar dövlət maliyyə nəzarəti tədbirinin tam həcmdə həyata keçirilməməsi;

27.4.3. təqdim edilmiş auditor hesabatında təkliflərin olmaması və ya hazırlanmış təkliflərin keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticələrinə uyğunsuzluğu.

27.5. Auditor hesabatı Hesablama Palatasının kollegiyasında təsdiq edilmədikdə, uyğunsuzluqların aradan qaldırılması üçün əlavə tədbirlərin keçirilməsi barədə tapşırıq verilir və bunun müddətləri müəyyən olunur.

27.6. Hesablama Palatasının kollegiya qərarı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi və şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin obyektlərinə və nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəflərə göndərilir.

27.7. Hesablama Palatasının qərarlarının icrası kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən təmin edilməli və qərarda başqa müddət müəyyən edilməmişdirsə, görülmüş tədbirlər barədə qərarların onlara çatdığı gündən bir ay müddətində Hesablama Palatasına məlumat verilməlidir.

27.8. Hesablama Palatası kollegiyasının qərarının ləğv edilməsi və ya onlara dəyişikliklərin edilməsi Hesablama Palatasının kollegiyası tərəfindən həyata keçirilir.

27.9. Hesablama Palatası kollegiyasının qərarlarından kənar dövlət maliyyə nəzarətinin obyekti, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanı (qurumu) və bələdiyyə tərəfindən qərarların onlara çatdığı gündən 30 gün müddətində Hesablama Palatasına şikayət verilə bilər. Hesablama Palatası verilən şikayətə 30 gün müddətində baxıb şikayətin təmin edilməsi, qismən təmin edilməsi və ya təmin edilməsindən imtina barədə qərarlardan birini qəbul etməlidir. Qəbul edilmiş qərar kənar dövlət maliyyə nəzarətinin obyektinə, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanına (qurumuna) və bələdiyyəyə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti, həmin nəzarətin predmeti ilə əlaqədar digər aidiyyəti dövlət orqanı (qurumu) və bələdiyyə bu qanunun 27.9-cu maddəsinə uyğun olaraq Hesablama Palatası kollegiyasının qəbul etdiyi qərardan razı qalmadıqda məhkəməyə şikayət verə bilər.

**Maddə 28. Hesablama Palatasının təqdimatları**

28.1. Hesablama Palatasının qərarları kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən əsassız olaraq icra edilmədikdə həmin obyektin xəzinə və bank hesabları üzrə (müdafiə olunan xərc maddələri istisna olmaqla) əməliyyatların dayandırılması barədə müvafiq xəzinə orqanlarına və (və ya) müvəkkil banklara Hesablama Palatasının kollegiyasının qərarı əsasında təqdimatlar verilir və bu barədə Azərbaycan Respublikasının Milli Məclisinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və kənar dövlət maliyyə nəzarətinin obyektinə məlumat verilir.

28.2. Hesablama Palatasının təqdimatlarının əsassız olaraq icra edilməməsinə görə vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

28.3. Hesablama Palatasının kollegiyasının qərarı əsasında verilmiş təqdimat həmin qərarın icrası təmin edilənədək qüvvədə qalır.

28.4. Təqdimatın ləğv edilməsi və ya onlara dəyişikliklərin edilməsi Hesablama Palatasının kollegiyası tərəfindən həyata keçirilir.

28.5. Bu qanunun 28.1-ci maddəsində müəyyən edilmiş qaydada təqdimatın verilməsi kənar dövlət maliyyə nəzarətinin obyekti və ya nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəfi kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticəsi üzrə Hesablama Palatası kollegiyasının qərarının icrasından azad etmir.

28.6. Təqdimatlardan kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən təqdimatların onlara çatdığı gündən 30 gün müddətində Hesablama Palatasına şikayət verilə bilər. Hesablama Palatası verilən şikayətə 30 gün müddətində baxıb şikayətin təmin edilməsi, qismən təmin edilməsi və ya təmin edilməsindən imtina barədə qərarlardan birini qəbul edir. Qəbul edilmiş qərar kənar dövlət maliyyə nəzarətinin obyektinə göndərilir. Kənar dövlət maliyyə nəzarətinin obyekti və Hesablama Palatası kollegiyasının qəbul etdiyi qərardan razı olmadıqda məhkəməyə şikayət verə bilər.

### IV fəsil
### QANUNUN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**Maddə 29. Hesablama Palatasının üzvlərinə və işçilərinə dair etik davranış qaydaları**

29.1. Hesablama Palatası ali audit orqanlarının beynəlxalq standartlarına uyğun olaraq etik davranış qaydalarını qəbul edir. Hesablama Palatasının üzvləri və işçiləri həmin qaydalara riayət etməlidirlər.

29.2. Hesablama Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına əməl edilməməsi məsələlərinə Hesablama Palatasının sədri tərəfindən yaradılan etika komissiyasında baxılır.

**Maddə 30. Hesablama Palatası üzvlərinin məsuliyyəti**

30.1. Hesablama Palatasının üzvləri aşağıda göstərilən hallarda intizam məsuliyyətinə cəlb edilə bilərlər:

30.1.1. bu qanunla onlara həvalə olunmuş vəzifələri yerinə yetirmədikdə və ya lazımi şəkildə yerinə yetirmədikdə;

30.1.2. Hesablama Palatası kollegiyasının iclaslarının normal gedişini, iş qaydasını pozduqda və qərarlarının qəbul edilməsinə mane olduqda;

30.1.3. Hesablama Palatasının və öz adına xələl gətirən hərəkətlər etdikdə;

30.1.4. korrupsiya hüquqpozmaları törətdikdə (inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda);

30.1.5. kollegiya iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə.

30.2. Hesablama Palatasının üzvləri bu qanunun 30.1-ci maddəsində göstərilən əsaslarla intizam məsuliyyətinə cəlb olunduqda, onların barəsində aşağıdakı intizam tənbeh tədbirləri tətbiq edilə bilər:

30.2.1. xəbərdarlıq;

30.2.2. töhmət;

30.2.3. Hesablama Palatasının üzvlüyünə xitam verilməsi.

30.3. Hesablama Palatasının üzvlərinə bu qanunun 30.2.1-ci və 30.2.2-ci maddələrində göstərilən intizam tənbeh tədbirlərini etika komissiyasının rəyi əsasında Hesablama Palatasının sədri, bu qanunun 30.2.3-cü maddədə göstərilən intizam tənbeh tədbirini isə Azərbaycan Respublikasının Milli Məclisi tətbiq edir.

30.4. Hesablama Palatasının üzvü üzrsüz səbəbdən ardıcıl olaraq üç dəfə və ya il ərzində altı dəfə kollegiya iclaslarında iştirak etmədikdə, bu qanunun 30.2.3-cü maddəsində göstərilən intizam tənbeh tədbirinin tətbiqi məqsədilə Hesablama Palatasının sədri tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə müraciət olunur.

**Maddə 31. Kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə əlaqədar Hesablama Palatasının vəzifəli şəxslərinin məsuliyyəti**

Kənar dövlət maliyyə nəzarəti tədbirini həyata keçirən Hesablama Palatasının vəzifəli şəxsləri vəzifələrini layiqincə yerinə yetirməməsinə, kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyətinə müdaxilə edilməsinə, nəzarət tədbiri zamanı əldə edilmiş məlumatların yayılmasına və etik davranış qaydalarına riayət edilməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 32. Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti fəaliyyəti ilə əlaqədar qurumların və onların vəzifəli şəxslərinin məsuliyyəti**

32.1. Qanunvericilik, icra, məhkəmə hakimiyyəti orqanları və bələdiyyələr, dövlət qurumları, bütün hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər Hesablama Palatasının səlahiyyətlərinin həyata keçirilməsinə kömək etməyə borcludurlar və bu qanunun 8.0.7-ci maddəsinin tələbləri nəzərə alınmaqla, bu məqsədlə zəruri sənəd və məlumatları, habelə kommersiya, vergi və bank sirri təşkil edən sənəd və məlumatları, fərdi məlumatları tələb olunan vaxtda və formada təqdim etməli, informasiya mənbələrinə çıxış imkanı yaratmalıdırlar.

32.2. Kənar dövlət maliyyə nəzarəti fəaliyyəti ilə əlaqədar kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən Hesablama Palatasının sorğularının tələb olunan qaydada cavablandırılmamasına, Hesablama Palatasının əməkdaşlarının kənar dövlət maliyyə nəzarəti obyektlərinə daxil olmasına, kənar dövlət maliyyə nəzarəti tədbirinin aparılmasına maneçilik törədilməsinə, zəruri məlumatların və ya sənədlərin, habelə bu qanunun 8.0.7-ci maddəsinin tələbləri nəzərə alınmaqla, kommersiya, vergi və bank sirri təşkil edən sənəd və məlumatların, fərdi məlumatların vaxtında və tələb olunan səviyyədə təqdim edilməməsinə və ya gecikdirilməsinə, yalan və ya dürüst olmayan məlumatların təqdim edilməsinə, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatların, habelə maliyyə, mühasibat, vergi və statistik uçotu hesabatlarının vaxtında təqdim edilməməsinə, hesabatlarda informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, elektron informasiya sistemlərinə çıxış imkanlarının yaradılmamasına və ya buna maneçilik törədilməsinə, Hesablama Palatasının qərarlarının əsassız icra edilməməsinə görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

32.3. Hesablama Palatasının funksional fəaliyyətinin icrası ilə bağlı maneələr yaradıldıqda Hesablama Palatası tərəfindən bu barədə Azərbaycan Respublikasının Milli Məclisinə və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilir.

ardı 5-ci səhifədə

# Hesablama Palatası haqqında

## Azərbaycan Respublikasının Qanunu

**V fəsil**
**HESABLAMA PALATASININ FƏALİYYƏTİNİN TƏMİNATLARI**

**Maddə 33. Hesablama Palatasının fəaliyyətinin maliyyələşdirilməsi**

33.1. Hesablama Palatasının fəaliyyəti üzrə xərclər Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilir.

33.2. Hesablama Palatasının fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

33.3. Hesablama Palatasının saxlanılması üçün ayrılan illik vəsait Hesablama Palatasının normal fəaliyyət göstərməsinə yönələn zəruri xərcləri özündə birləşdirir.

33.4. Hesablama Palatası tərəfindən Hesablama Palatasının xərclər smetasının layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

33.5. Hesablama Palatasının xərclər smetası Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən dövlət büdcəsinin layihəsinə baxılarkən ayrıca təsdiq edilir.

**Maddə 34. Hesablama Palatasının üzvlərinin təminatları**

34.1. Hesablama Palatası sədrinin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavininin aylıq vəzifə maaşına və təminatlarına bərabərdir.

34.2. Hesablama Palatası sədrinin müavininin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavininin aylıq vəzifə maaşına və təminatlarına bərabərdir.

34.3. Hesablama Palatasının auditorlarının aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrlərinin aylıq vəzifə maaşlarına və təminatlarına bərabərdir.

**Maddə 35. Hesablama Palatasının üzvlərinin əmək məzuniyyəti**

35.1. Hesablama Palatasının üzvlərinə hər il 40 təqvim günü müddətində əmək məzuniyyəti verilir.

35.2. Hesablama Palatasının üzvlərinə əmək məzuniyyətinə çıxarkən bu qanunun 34-cü maddəsinə uyğun olaraq müavinət verilir.

35.3. Hesablama Palatasının üzvlərinə əmək məzuniyyəti Hesablama Palatasının sədri tərəfindən verilir.

35.4. Hesablama Palatasının üzvü əmək məzuniyyətindən istifadə etmədikdə, ona həmin il (illər) üçün istifadə edilməmiş məzuniyyətə görə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir.

**Maddə 36. Hesablama Palatasının Təlim Mərkəzi**

36.1. Hesablama Palatasına yeni təyin edilmiş və Hesablama Palatasında çalışan işçilərin bilik və bacarıqlarının, peşə hazırlıqlarının artırılması, kadr potensialının yüksəldilməsi, ali audit orqanlarının beynəlxalq standartlarının və qabaqcıl təcrübələrin öyrənilməsi işinin təşkil edilməsi məqsədilə Hesablama Palatasının Təlim Mərkəzi yaradılır.

36.2. Hesablama Palatasının Təlim Mərkəzinin fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

**VI fəsil**
**YEKUN MÜDDƏALAR**

**Maddə 37. Hesablama Palatasının hesabatlılığı**

37.1. Hesablama Palatasının fəaliyyəti haqqında hesabatlar "Azərbaycan Respublikasının Milli Məclisinin Məlumatı"nda dərc edilir.

37.2. Hesablama Palatası fəaliyyəti barədə kütləvi informasiya vasitələrinə məlumatlar verir.

37.3. Hesablama Palatasının fəaliyyəti barədə məlumatlar verildikdə aşağıdakılar nəzərə alınır:

37.3.1. kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə bağlı məlumatlar, onların nəticələrinə dair materiallar Azərbaycan Respublikası Milli Məclisinə göndərildikdən sonra verilir;

37.3.2. rəsmi məlumatların məzmunu və forması Hesablama Palatasının kollegiyası tərəfindən müəyyən olunur;

37.3.3. məlumatlar Hesablama Palatasının sədri, onun tapşırığı ilə Hesablama Palatasının sədrinin müavini, auditorları və ya Hesablama Palatasının digər vəzifəli şəxsləri tərəfindən verilir;

37.3.4. Hesablama Palatası fəaliyyəti haqqında məlumatları verdikdə dövlət sirri, kommersiya sirri və qanunla mühafizə olunan digər sirlərin qorunması haqqında tələblərə riayət olunur.

37.4. Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti ilə əlaqədar xüsusi informasiya bülletenləri, jurnal və digər nəşrlər dərc etdirə bilər.

**Maddə 38. Hesablama Palatasının auditi**

Hesablama Palatasının maliyyə auditi Hesablama Palatasının müraciəti əsasında və ya Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlar və ya "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərən auditor təşkilatları tərəfindən həyata keçirilə bilər.

**Maddə 39. Beynəlxalq əməkdaşlıq**

39.1. Hesablama Palatasının beynəlxalq əməkdaşlığı xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla və beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və razılaşmalara əsasən həyata keçirilir.

39.2. Hesablama Palatası bu qanuna, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq, onun səlahiyyətlərinə aid edilən məsələlər üzrə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla qarşılıqlı münasibətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir.

39.3. Hesablama Palatası beynəlxalq təşkilatlara üzv ola, beynəlxalq təşkilatlarla məsləhətləşmə və birgə layihələr həyata keçirə, fəaliyyətinin müxtəlif sahələri üzrə xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla əməkdaşlıq haqqında müqavilələr bağlaya bilər.

39.4. Hesablama Palatası xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən qurumlarla, ali audit qurumlarının beynəlxalq təşkilatları ilə birgə və paralel auditlər və təhlillər həyata keçirə bilər.

**Maddə 40. Məxfilik**

Hesablama Palatasının üzvləri, işçiləri və Hesablama Palatasının fəaliyyəti ilə əlaqədar cəlb edilən ekspert, mütəxəssis və sərbəst auditorlar xidməti məlumatları, o cümlədən qanunla qorunan dövlət, bank, kommersiya və sair sirlərə aid olan məlumatları qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, açıqlaya bilməzlər.

**Maddə 41. Yekun müddəa**

Bu qanun qüvvəyə mindiyi gündən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 1999-cu il 2 iyul tarixli 700-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 480; 2001, № 11, maddə 676, № 12, maddə 744; 2004, № 4, maddə 202, № 9, maddə 667; 2005, № 2, maddə 62; 2007, №7, maddə 712; 2008, № 5, maddə 339; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 173, №4, maddə 276; 2016, № 7, maddə 1229; 2017, № 12 (I kitab), maddə 2213) və "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 5 mart tarixli 269-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 117; 2006, № 2, maddə 67; 2007, № 11, maddə 1081; 2008, № 8, maddə 699; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.4-cü, 7.0.6-cı, 7.0.7-ci, 12.3-cü, 20.5-ci maddələrində, 21.11-ci maddəsinin birinci cümləsində (hər iki halda), 21.13-cü maddəsində, 22.16-cı maddəsinin ikinci cümləsində (hər iki halda), 24.7-ci, 28.1-ci, 32.3-cü və 33.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 7.0.4-cü, 7.0.6-cı, 7.0.7-ci, 20.5-ci maddələrində, 21.11-ci maddəsinin birinci cümləsində (hər iki halda), 21.13-cü, 22.16-cı maddəsinin ikinci cümləsində (hər iki halda), 24.7-ci, 28.1-ci və 32.3-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin qanunun 12.3-cü və 33.4-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

# Üzeyir Hacıbəyli (Hacıbəyov)

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100



Musiqi ictimaiyyətimiz hər il dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin (Hacıbəyov) doğum gününü (18 sentyabr tarixini) Milli Musiqi günü kimi qeyd edir. Üzeyir Hacıbəyli müasir Azərbaycan peşəkar musiqisinin və milli operasının banisi olmaqla bərabər, 100-lərlə publisistik məqalələrin də müəllifidir. Onun 1918-20-ci illərdəki fəaliyyəti Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti ilə bilavasitə bağlı olmuşdur.

Hərtərəfli istedadını doğma xalqının milli və sosial-siyasi azadlığı, tərəqqisi uğrunda mübarizəyə həsr etmiş Üzeyir bəy Hacıbəyli milli istiqlalın təcəssümü olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılamış, var qüvvə və bacarığı ilə milli dövlətçiliyin təşəkkülü və inkişafı işinə qoşulmuşdur. Üzeyir bəyin publisistik məqalə və felyetonları hər gün, yaxud günaşırı "Azərbaycan" qəzetində çap olunur, bəzən isə bir nömrədə müxtəlif imzalarla iki yazısı çıxırdı. Qəzetin ilk redaktoru Üzeyir Hacıbəylinin kiçik qardaşı Ceyhun bəy olmuşdur. Üzeyir bəy Hacıbəylinin özü isə 1919-cu il yanvarın 16-da çıxmış 89-cu sayından başlayaraq "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. Bu vaxtdan "Azərbaycan" qəzeti "Müvəqqəti müdir: Üzeyir bəy Hacıbəyli" imzası ilə buraxılmış və bu imza qəzetin həmin il 30 iyun tarixli 215-ci sayına qədər davam etmişdir. Üzeyir bəy iki aylıq müalicədən qayıtdıqdan sonra, 1919-cu ilin sentyabrından etibarən yenidən "Azərbaycan" qəzetində işə başlamış və 1920-ci il aprelin 27-nə kimi qəzetin müdiri işləmişdir.

Üzeyir bəy Hacıbəyli qəzetə rəhbərlik etməklə, onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmışdır. "Azərbaycan"dakı fəaliyyətində Üzeyir bəy Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və milli məsləkli publisist kimi göstərmişdir. Qəzetin səhifələrində Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə (xüsusilə, neft sənayesinə), maarif və mədəniyyətinə və s. aid 100-dən çox məqaləsi dərc olunmuşdur. Müasir ictimai-siyasi durumla yaxından səsləşən "Mühüm məsələlər", "Partiyalarımıza", "Təəssürat", "İstiqlal və istiqbal ümidi", "Tarixi günümüz", "Andronik məsələsi", "Vəzifəmiz nədir", "Lənkəran faciəsi", "Kim nəyin fikrində imiş", "Fitnələr qarşısında", "Naxçıvan və Qarabağ", "Qarabağ haqqında", "İçimizdəki denikinlər", "Ermənistan və Azərbaycan münasibəti" və s. yazılar Üzeyir bəy Hacıbəylinin uzaqgörən siyasətçi, əqidəli publisist olduğunu bariz şəkildə göstərir. Üzeyir bəy Hacıbəyli redaktor işlədiyi müddətdə Azərbaycan və onun ətrafında baş verən hadisələri qəzetin səhifələrində əks etdirməklə yanaşı, burada dərc etdirdiyi çoxsaylı məqalələrində həmin hadisələrə özünün şəxsi münasibətini bildirirdi. Bu məqalələrdə o, Azərbaycan Cümhuriyyəti Parlamentinin, Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli hökumətlərinin yeritdiyi siyasi xətti qızğın müdafiə edirdi.

"Bir yaş" - Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümü münasibətilə Üzeyir bəy Hacıbəylinin "Azərbaycan" qəzetinin 28 may 1919-cu il 190-cı sayında dərc olunmuş məqaləsi belə adlanırdı. Azərbaycan xalqının şanlı istiqlal mübarizəsi sayəsində və çoxsaylı şəhidlərinin qanı bahasına əldə etdiyi azadlığın milli bayram səviyyəsində qeyd edilməsi, xoşbəxt gələcək naminə görüləcək işlər və arzular məqalənin əsas məğzini təşkil edirdi:

"Bu gün istiqlalını elan etmiş olduğumuz və istiqlal qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür...

Növzad dövlətimizin təvəllüdü, ana bətnindən doğulması - çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən, özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xərabazara, bir viranəyə dönəcək idi. Onun, o madərimehribanının nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anası bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurdxaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər.

Lakin bu zəif sinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvətə haiz idi ki, zəif cism, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarini qeyb etmədi.

Ana Vətən doğdu...

Və bu gün doğduğu övladının sənəyi-dövriyyəsi münasibətilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib nümayişkaranə bir surətdə bəyani-iftixar etmədədir.

Bir yaşlı dövlətimiz, — gələcəkdə — yaxın gələcəkdə - türklügün ümidgahı, islamlığın pənahı və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda - hər kəsə bildirmədədir.

Azərbaycanın türkliklə istiqbal meyvələri yetişdirmək üçün münbit bir torpaq təşkil etdigini Osmanlı türk qardaşlarımız dəxi iqrar və etiraf edib bizə ümidi - nəzər ilə baxmadadırlar. Filhəqiqə, Azərbaycan idi ki, türk şərqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu millətini unutmuş türklərə bildirdi. Onlara - sən əvvəl-əvvəl bir türksən, dedi və "türkəm " dedirtdi...

Türk qövminin dəxi farslar, ərəblər kimi müstərif olduqları dinimüzin islamın - Allahımız bir, peyğəmbərimiz bir, Quranımız bir və binaən-ileh dinimiz də bir olmalıdır — deyə bu birliyə feil və əql ilə qədəm qoyan Azərbaycan türkləri oldu desəm, əminəm ki, xəta etmərəm. Bu fikrin Azərbaycan türkləri arasında olduqca sürətlə intişarı və qüvvətlənməsini görərkən sözlərimin təsdiqinə məcbur olarlar.

Bizi vəhşi bilənlər və bizdən yalnız qaniçicilik gözləyənlər ilə və bizim vücudimizi aləmi-mədəniyyət üçün təhlükəli əd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilis bizim içimizə girərkən, özlərini vəhşi bir heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmalitəəccüblə anladılar və haqqımızda bəsləməkdə olduqları nəzər və təsəvvüratın - bilməməzlik və ya düşmən təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər; əminəm ki, bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən cəbrən mərhum və cəhalətə məhkum edilmiş olan bir millət, azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətalarını ənzari-bəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...

AL rəngi türkligə, YAŞIL rəngi islamlığa və MAVİ rəngi mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur.

Adamlar var ki, bizim istiqlalımızı istəmiyordilər, halbuki bizə düşmən dəgil idilər və bu istəməməzlikləri də düşmənçilik yüzindən dəgil idi; fəqət, onlar qorxurdular. Qorxurdular ki, biz hökumət etməgə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayub da müxtəlif millətli təbəmizin can və malını mühafizə edə bilməyərək, siyasətdə bacarıqsızlıq göstərub xalqın istirahətini pozaq...

Lakin növzad dövlətimizin yeni başlamış ömrünün günləri və ayları gəlib keçdikcə, bu fikirdəki adamlar öz fikirlərini dəgişməgə məcbur oldular; bolşeviklər dövründə həsrətini çəkdigimiz çörək və çörəkdən artıq həsrətində olduğumuz əmin və asayişin yoxluğu və cəmaəti qoz və fındıq kimi bizar olan qətl və qarətin çoxluğu - o da, bu da dəf edildi; Azərbaycan dövləti çörək ilə bərabər əmin və asayişi də iadə etməklə əhalini həm aclıq, həm də qətl və qarət bəlalarından xilas qıldı; cavan dövlətimiz, dünyanı bürümüş olan sarı xəstəliklərlə də mədənizar bir surətdə mübarizəyə girişib zəfər və müvəffəqiyyət qazandı...

Düşmənlərimizin virdi-zəban etdiki "bəg, xan və şallaq hökuməti" əvəzinə ən demokratik və ən hürriyyətpərvər bir dövlət olduğunu bildirdi. Əhalisinə bir bu qədər geniş və genişligi heç bir hökumətdə görünməmiş bunca hürriyyət və azadlıqların vücudi qarsısında düşmənlərimizin gözləri heyrətlənib dilləri lal olacaq idi ki, hiylə və təzvirə əl atıb hökumətimizin bu qədər hürriyyətpərəstligini cəbunluğa və səhlənkarlığa isnad ilə bizi gənə də ləkələndirmək istiyordilər. Lakin bu axırki zabastovkanı - Azərbaycan istiqlalını məhv etmək və məmləkətimizi anarşı halına salmaq niyyətilə qurulmuş zabastovkanı yatırmaq işində hökumətimizin və millətimizin göstərmiş olduğu əzm və səbat, ustadlıq və məharət düşmənlərimizin bu ləkəsini üzərimizdən sildi və bu töhməti də rəf etdi...

İçərisində çıxan qırmızı təhlükəni rəf və izaləyə qadir olan bir hökumət və millət, xaricdən sədası gələn qara təhlükəni də dağıtmağa və darmadağın etməgə qadir olmazmı, zənn ediyorsınız? Siz onun bir yaşar olduğuna baxmayın;düşmən dəfində təcrübəsaz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxub da əmin olunuz ki, bu hökumət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir və bu qüdrətini lazım olduğu halda isbat edər. Bu təntənəli cəlal və şövkətli bayramımızı görənlər bunu yəqin bilsin ki, bir yaşar cavan Azərbaycan Türk Dövlətinin istiqlali-mühafizəsindəki şüarı budur ki:

**ÖLMƏK VAR, DÖNMƏK YOXDUR.** Bu əziz bayram günü sidq dil ilə - yaşasın müstəqil Azərbaycan deyənlər, əmin olmalı; onu müstəqil yaşatmağa qadir olarlar."

**("Azərbaycan", 1919, 28 may)**

# "Nəsimi"dən başlanan UĞUR

Görkəmli Azərbaycan aktyoru, Azərbaycanın xalq artisti, "Şöhrət" ordeni laureatı, "Şərəf" ordeni laureatı, Prezident təqaüdçüsü Rasim Balayev bu günlərdə 70 illik yubileyini qeyd etdi.
Rasim Əhməd oğlu Balayev 8 avqust 1948-ci ildə Ağsu rayonunda anadan olmuşdur. 1965-ci ildə Ağsuda orta məktəbi, 1969-cu ildə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolda çəkilmişdir.
İlk uğuru ona, demək olar ki, "Nəsimi" filmi gətirmişdir. Sonra "Babək" və "Dədə Qorqud" filmlərindəki rollarda da tamaşaçıların sevgisini qazanmışdır. "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasında da çalışmışdır.
Böyük və çətin rollardan əlavə Rasim Balayev kiçik rollarda da oynamışdır.



"Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" kimi filmlərdə o, epizodik rol oynamışdır. "Özbəkfilm"də, "Mosfilm"də və başqa studiyalarda filmlərə çəkilmişdir.
1990-cı ildən 18 yanvar 2013-cü ilə qədər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi olmuşdur. 1 avqust 2018-ci ildə Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib.
Yaratdığı bir-birindən maraqlı obrazlarla xalqın sevgisini qazanmış böyük sənətkarın bu günə qazandıqları layiq görüldüyü çoxlu sayda mükafatlardır... Və sözlə ifadə oluna bilməyəcək tamaşaçı sevgisi!
70 yaşınız mübarək, sevimli aktyor, böyük sənətkar!





# Çağdaş türk dünyasının böyük yazarı



Bu bahar 75 illiyini qeyd edən yazıçı Elçin görkəmli ictimai və dövlət xadimi, bu gün ədəbi-mədəni mühitin formalaşmasında böyük rolu olan hörmətli və nüfuzlu şəxsiyyətlərdən biridir. Onun həm dövlətçiliklə, həm də bədii yaradıcılıqla bağlı fəaliyyəti bir-birini ahəngdar şəkildə tamamlayır.
O, hazırda yaradıcılığının ən dolğun çağını yaşayır. Əsərləri rus, ingilis, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, rumın, fars, çex, polyak, xorvat, gürcü, moldav, türkmən, özbək, qazax, tacik, serb və s. dillərə tərcümə edilmişdir. Yalnız elə bu faktı qeyd edək ki, Elçinin qardaş Türkiyədə 18 kitabı nəşr olunmuşdur. Elçin alnının təri olan bütün zəhmətini 10 cildlik "Seçilmiş əsərləri"ndə cəmləşdirmişdir.
Özünəməxsusluq, orijinallıq, yenilik, psixoloji dərinlik və dəqiqlik, bədii dilin, lüğət tərkibinin zənginliyi, dünyagörüşünün genişliyi onun çoxcəhətli yaradıcılığını şərtləndirən başlıca xüsusiyyətlərdəndir.
Elçin müxtəlif millətlərdən ibarət milyonlarla oxucu auditoriyasının sevimli yazıçısıdır. Böyük fəxr və qürur hissi ilə dünyaca məşhur yazarların Elçin haqqında fikirlərini diqqətinizə çatdırırıq.

**Süleyman Dəmirəl,**
**Türkiyənin 9-cu Prezidenti**

Əzizim Elçin. Sənin yubileyin cavan kimi görünə bilər. Ancaq biz bilirik ki, bu yaş uğurlu ədəbi yaradıcılıq onilliklərinin və XXI əsrin başlanğıcı kimi çox maraqlı bir tarixi dövrdə dövlət xidmətinə həsr etdiyin illərin toplamıdır. Bütün bu iş, əmək və xidmət illərini doğma Azərbaycan naminə böyük xidmət dövrü adlandırmaq olar. Müstəqil dövlət quruculuğunda bu qədər fəal iştirak etmək kimi çətin bir xoşbəxtlik sənin heç də hər müasirinə nəsib olmayıb. Belə günlərdə doğma insanlar nə arzu edirlərsə, sənə, əziz dostum və qardaşım, onların hamısını arzulayıram.

**Oljas Süleymenov,**
**Qazaxıstan Xalq şairi,**
**ictimai xadim**

Elçinin maraqlı "Gümüşü Furqon" ("Bir görüşün tarixçəsi" - tərc.) povesti H.Mitinin tərcüməsində "Yunost" jurnalında dərc edilmişdir. Gənc müəllifin rus dilində ilk dəfə çap olunmuş bu əsəri bizim jurnalın redaksiya heyəti tərəfindən yüksək qiymətləndirilmişdir, ən əsası isə yaxşı oxucu poçtuna malikdir.

**Boris Polevoy,**
**rus yazıçısı**

Əziz Elçin! "Mahmud və Məryəm" həm fəlsəfi konsepsiyasının dərinliyi, həm də bədii ifadə baxımından məndə böyük təəssürat yaratdı, siz əsl ustadsınız. Siz məni tamam yüngülcəsinə, heç geriyə də boylanmadan uzaq dövr insanlarının dünyasına daxil etdiniz. Siz öz əsas fikrinizi necə də dəqiq müəyyənləşdirmisiniz: böyüklük, əzəmət – istər həqiqi, istərsə də xəyali olsun – öz mahiyyəti etibarilə faciəvidir. Mənə düşüncələr, təşvişlər və heyranlıqlar bəxş edən saatlara görə sizə "çox sağ ol" deyirəm...

**Yelena Movçan,**
**rus yazıçı-publisisti**

Biz bu gün fəxr edirik ki, türk dünyasının böyük yazıçısı Elçin universitetimizin qonağıdır. Onun əsərləri də, fəaliyyəti də yüksək təqdirə layiqdir.

**Çingiz Aytmatov,**
**Qırğızıstanın Xalq yazıçısı**

Dünyada və xüsusilə türk topluluklarında çox böyük ehtiram qazanan sayın Elçinə türk dünyasında və insanlığa göstərdiyi xidmətlərin davamını diləyirəm.

**Əli Doğramacı,**
**professor, Bilkənd Universitetinin rektoru**

Elçin dolğun yaradıcılığı ilə həm ədəbiyyat, həm də böyük siyasət sahəsində, həqiqətən də, məftunedici nəticələr əldə edib.

**Mixail Şvıdkoy,**
**sənətşünas, RF-nin keçmiş mədəniyyət naziri**

Çox hörmətli Elçin! "Parisdə avtomobil qəzası" kitabınıza heyran qalmışam. Sizin yumorunuz, sizin fantastik notlarınız və lirik verginiz mənim çox xoşuma gəlir. "Mahmud və Məryəm" çox sevdiyim və dəfələrlə oxuduğum kitablardan biri "Min bir gecə"ni mənim yadıma saldı. Sizin bu əsərinizdə mən Şərqin bütün gözəlliyini, qəddarlığını və ehtirasını tapdım. Siz bu qəribə, gözəl və qorxulu dünyanın atmosferini əla təsvir edirsiniz.

**Banin (Əsədullayeva Ümmülbanu), Fransada yaşayıb-yaradan Azərbaycan yazıçısı**

Elçin möcüzə sevir. İncəsənətin bir dili var: hisslərin və həyəcanların dili. Lakin Elçin üçün möcüzə yalnız fantastika deyil. Bu – narahat, axtarışda olan canlı insan qəlbidir, həyatı dərindən dərk edən saf və xeyirxah insani münasibətlərdir. Yazıçı çox böyük həssaslıqla və incəliklə öz qəhrəmanlarının ən adi bir hərəkətini, əhval-ruhiyyəsini, hiss və fikirlərini duyub təsvir edən rəssam kimidir.

**Əli Özgəntürk,**
**türk alimi**

Elçinin hekayələrini oxuyanda mən ən qəribə folklor motivlərini xatırlayıram.

**Oleq Loyko,**
**rus tənqidçisi**

Elçinin pyesləri dünya dramaturgiyasının layiqli nümunələridir.

**Tuncər Cücənoğlu,**
**türk dramaturqu**

Elçin möcüzələri sevir, o zərif və mehriban nağılçıdır, o kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...

**Zoya Kedrina,**
**rus tənqidçisi**

Elçin yaradıcılığı artıq neçə illərdir ki, iki qardaş ölkə arasında mənəvi körpü rolunu oynayır.

**Yevgeniya Nevmerjitskaya,**
**Xalq artisti**

Türk dünyasının böyük yazarı Elçinin yaradıcılığı yalnız qardaş Azərbaycanda və ümumiyyətlə, yalnız türk dünyasında deyil, çağdaş dünya ədəbiyyatında layiqli yer tutur.

**Ömür Ceylan,**
**professor, türk ədəbiyyatşünası**

Mən böyük yazarımız Elçinə "xocam" deyə müraciət etməkdən şərəf duyuram. Xocamızın bizim universitetin Onursal (Fəxri) doktoru seçilməsini hər birimiz kimi, mən də yüksək qiymətləndirir və bundan şərəf duyuram.

**Dursun Koçer,**
**professor, İstanbul Kültür Universitetinin rektoru**

Dərd, kədər, sevinc, məhəbbət, ayrılıq, ölüm... ayrı-ayrı xalqlar üçün deyil, bütün insanlar üçün xarakterikdir. Elçinin pyeslərinə də bu aspektdən, bu səpkidən yanaşmaq lazımdır. Belə cəhətlər isə əsərləri ilə dünyanı dolaşan böyük sənətkarlara xasdır. Bu xüsusiyyətlər Elçin dramaturgiyası üçün də xarakterikdir... Elçinin sənətkar kimi həyata baxışı, dramaturgiyası qeyri-adi olduğu üçün teatrlar ona müraciət edirlər.

**Aleksandr Şarovski,**
**Xalq artisti**

Azərbaycan hekayəçiliyinin ən öndə gedən isimlərindən biri olan Elçinin hekayələrinin Türkiyə ədəbiyyatı üçün "təzə qan" olacağına inanırıq.

**Ərtuğrul Günay,**
**Türkiyə Respublikasının Mədəniyyət və Turizm naziri**

Əzizim Elçin! "Literaturnaya qazeta"-da kitabım haqqında sənin söz deməyin mənə böyük sevinc bəxş etdi. Mənim üçün xüsusən orası qiymətlidir ki, bu məqalə ağıllı, dediyindən çəkinməyən, istedadlı bir qələmin stilist ustalığı ilə ərsəyə gəlib. Sənə ilk növbədə yüksək anlamaq qabiliyyətinə görə təşəkkür edirəm.»

**Bülənt Gürcam,**
**"Belçika-Azərbaycan Evi"nin yaradıcısı və rəhbəri**

Türk dünyasının böyük yazarı, professor-doktor Elçin yüzilin yetirdiyi, həm də sadəcə Azərbaycan xalqının deyil, böyük insanların duyğularını dilə gətirmiş önəmli bir şəxsiyyətdir. Türkiyədə çap olunan "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Şuşa dağlarını duman bürüdü", "Sarı gəlin" kitabları ilə yanaşı, Ankara, Ərzurum, Konya Dövlət Teatrlarında səhnəyə qoyulan "Mənim sevimli dəlim", "Mən sənin dayınam" və "Mənim ərim dəlidir" adlı pyeslər də xalqımızın böyük məftunluqla oxuduğu və tamaşa etdiyi əsərlərdəndir. Türk xalqları ədəbiyyatının ulduzu, ortaq qürur qaynağımız – Elçin.

**Metin Turan,**
**türk alimi, professor**

Alman dilində Elçinin "Mahmud və Məryəm" və "Ağ dəvə" romanlarını oxumuşam. Onun "Ölüm hökmü" romanını isə türk dilində oxumuşam. Məncə, bu roman dünya miqyaslı bir əsərdir. Elçin mənim çox dəyərləndirdiyim azsaylı müasir yazıçılardan biridir.

**Henrix Fişer,**
**alman türkoloqu**

Azərbaycan ilə Türkiyə əbədi dost və qardaş ölkələrdir. Hörmətli Elçin bəyin "Ulduzlar altında cinayət" ("Qatil") tamaşası da həmin şərəfli əbədiyyət yolunda irəliyə aparan əlamətdar bir addımdır.

**Bəybala Ələsgərov,**
**tarix elmləri doktoru**

# Космос под угрозой

***В последнее время в СМИ много говорится о наращивании военного арсенала ведущих военных держав мира в космосе. Об этом рассказал эксперт по космическим и экологическим вопросам, доктор технических наук, профессор, действительный член Международной экоэнергетической академии, Российской академии естественных наук, Международной академии экологии и безопасности жизнедеятельности Фуад Гаджи-заде.***



**- В последнее время в СМИ часто можно видеть публикации, касающиеся темы войны, но уже в космосе.**

- Следует отметить, что существует Соглашение о космическом пространстве от 1967 года, которое определяет космическое пространство как «область для всего человечества», означающее, что это место принадлежит всем, а не только каким-то отдельным странам. Этот документ подписан более 100 странами, включая США, Россию (ранее СССР) и Китай. Существует договор и комитет ООН, которые призваны сохранять космическое пространство в мире.

В 1950-х годах президент США Дуайт Эйзенхауэр создал две отдельные космические программы – гражданскую (которая впоследствии стала NASA) и военную. Военно-космическая программа в основном возглавлялась Военно-воздушными силами страны (ВВС). Еще в 1960-х годах военные предлагали создать космическую станцию ВВС на орбите, однако администрация президента Ричарда Никсона отбросила эту идею, поскольку возможные выгоды не оправдывают масштабные организационные перемены.

Совсем недавно Президент США Дональд Трамп решил, что пяти родов войск Вооруженных сил США не достаточно. Он приказал Департаменту обороны создать Космические силы в качестве шестой ветви американской армии, при этом заявив: «У нас будут Военно-воздушные силы и Космические силы, отдельные, но равные». Ранее же, в марте, Дональд Трамп, выступая на авиабазе Маримар провозгласил: «Космос – это поле битвы, такое же как и суша, небо или море». «Это кошмарное суждение», написал в газете Washington Post международный юридический консультант Петер Висмер. Автор отметил, что президент Трамп таким образом повторил суждения тех, кто много знает о войне и совсем ничего о космосе.

Эксперт в области космоса Американского университета Говард МакКерди комментируя предложение Трампа сказал, что это действительно то, что американцы уже делают, но оно дает этой миссии более высокий статус. Шон О'Киф, бывший администратор NASA во времена президента Джорджа Буша, склоняется к мысли, что этот вопрос больше касается уровня разведки и кибербезопасности, чем борьбы на орбите.

В свою очередь, начальник штаба ВВС США Дэвид Гольдфейн в конце февраля 2018-го года заявил, что война в космосе - дело нескольких лет, поэтому вооруженные силы страны должны превосходить и в космическом пространстве.

Дональд Трамп считает космос такой же зоной боевых действий, как и пространство на земле, в воздухе и воде. Американский президент планирует создание новых военных сил США, сообщает "Диалог.UA", со ссылкой на The Washington Post. Сначала идея создания Космических войск показалась ему не серьезной, но вскоре он решил, что мысль отличная. Во время выступления на базе морской пехоты в Сан-Диего он сказал, что у США есть Военно-воздушные силы и мы создадим также Космические силы, добавив, при этом: "Может быть, нам нужно будет это сделать. Это может произойти".

По мнению американских экспертов, после Холодной войны только в последние годы впервые военные в США стали относиться к космосу серьезно. США хотели бы видеть свою космическую инфраструктуру и спутники способными противостоять внешнему воздействию противника. Цель - выдерживать удары, маневрировать, уклоняться и даже наносить ответные удары. Это займет лет 20, но главное, по их мнению, что процесс пошел. В 2016 году была обозначена новая космическая концепция (Space Enterprise Vision), призванная создать "устойчивую" космическую инфраструктуру вооруженных сил США к 2030 году.

**- А что же космические державы Россия и Китай, а также и другие страны?**

Американские военные аналитики отмечают, что Китай и Россия также работают в этом направлении и в следующем десятилетии согбираются выводить в космос специальные спутники-инспекторы, которые предназначаются для решения двух задач: заниматься очисткой орбит от космического мусора и производить ремонт, заправку и модернизацию уже имеющихся на орбите космических аппаратов. Эти задачи предполагают, что данные спутники смогут входить в непосредственный контакт с другими спутниками и активно маневрировать в космосе. И этот контакт необязательно может быть мирным, так как такого рода спецспутники смогут захватывать или уничтожать спутники вероятного противника, а также проводить слежение за их поведением и каналами коммуникации.

Директор Национальной разведки США Дэниел Коутс заявил, что Россия и Китай продолжают проводить самые современные орбитальные операции со спутниками по сближению и их стыковке. Он считает, что часть этих действий проводится с целью испытания техники двойного назначения, которую можно применять в противоспутниковой борьбе. Такие системы будут создавать большие проблемы в будущем, мешая США оценивать обстановку в космическом пространстве, распознавать намерения противника в космосе и заблаговременно предупреждать об угрозах.

Заметим, что в России маневрирующие спутники запускают и тестируют с 2013 года ("Космос-2491" и далее "Космос-2521" в марте 2018-го года). В июне 2015 года российский спутник "Луч" разместился между спутниками Intelsat 7 и Intelsat 901 и пробыл там вплоть до сентября 2015 года. Мировые СМИ писали, что российский спутник маневрировал в космосе, "парковался" рядом с другими спутниками и "подслушивал" их коммуникации с землей.

В этом плане США беспокоят два вопроса: "глушение" спутниковых сигналов или их изменение противником, а также техническая способность спутниковых группировок обслуживать флот беспилотников, ведущих съемку. Выход из строя GPS сделает невозможным применение "умных боеприпасов" американскими вооруженными силами, усложнит ориентирование и маневрирование. В таких случаях будут также рассинхронизированы смартфоны, системы навигации самолетов, грузовиков, кораблей, станут неработоспособными службы экстренной помощи. "Глушение" сигнала или его корректировка противником может привести к тому, что выйдут из строя системы целеопределения, раннего оповещения, точности нанесения ударов и т.п., без чего практически перестанет функционировать вся современная военная машина страны. Даже небольшой сбой или прерывание потоков информации может привести к серьезным последствиям.

В настоящее время в СМИ все чаще появляются материалы о планах Китая размещать в космосе лазеры, предназначенные для сбора на орбитах космического мусора и осколков спутников. И конечно же, появление этих лазеров в космосе сразу приведет к мысли их военного использования.

На фоне громких статей о спутниках-смертниках и лазерах в космосе идет другая работа: космос становится ареной в сферах слежения за землей и перемещениями воздушной техники. Китай и США активно впрягаются в эту гонку.

Ресурс China Military Online писал, что с 2019 года в Китае стартует проект "Хайнань". В рамках этого проекта на орбиту в течение 4-5 лет будут выведены шесть спутников оптического дистанционного зондирования, а затем в рамках проекта "Санья" будут запущены еще два спутника гиперспектральной съемки и два спутника радиолокационного зондирования. Как только общая группировка составит восемь спутников, Китай сможет следить за всем Южно-Китайским морем 24 часа в сутки вне зависимости от погодных условий. Спутники смогут также мониторить из космоса страны Шелкового Пути и следить за "каждым островом, рифом и кораблем" в Южно-Китайском море.

Участники проекта не скрывают, что новая группировка спутников призвана усилить статус Китая как морской державы, стать гарантом развития морской мощи страны и поддержать "национальный суверенитет" в водах Южно-Китайского моря. Спутники смогут передавать информацию о погодных условиях в регионе и сигнализировать о чрезвычайных условиях. В 2018 году в Китае начнутся работы по созданию наземной инфраструктуры для функционирования группировки. Aviation Week ,в свою очередь заявлял, что к 2022 году Китай запустит в космос свыше 700 нано- и микро- спутников, способных вести съемку земли в высоком разрешении. Они будут иметь двойное: гражданское и военное назначение.

27 декабря прошлого года Китай запустил очередную серию разведывательных спутников "Яогань". Три аппарата стали дополнениям к двум тройкам, выведенным на орбиты в сентябре и ноябре. По данным аналитиков, эта серия из девяти спутников призвана протестировать новое радиоэлектронное оборудование Китая для слежения за военно-морскими передвижениями ВМС США и других стран.

Осенью прошлого года в СМИ появились материалы о том, что Китай активно работает над созданием спутников, способных осуществлять из космоса "квантовую фантомную съемку" (ghost imaging). Гунь Вэньлинь, глава лаборатории квантовой оптики в Китайской академии наук в Шанхае, заявил, что к 2020 году в Китае будет создан прототип квантовой космической камеры, в 2025 году проведут испытания в космосе, а в 2030 можно ожидать масштабного применения технологии.

Она позволит китайцам определять объекты на земле и в воздухе вплоть до химической составляющей их материала, что поставит крест на технологиях маскировки боевых машин в радиолокационном, инфракрасном и других областях спектра обнаружения. В первую очередь Китай сможет безошибочно отслеживать полеты американских стратегических бомбардировщиков B-2 Spirit и идущих им на замену B-21, способных доставлять ядерное оружие.

В прошлом году начальник Стратегического командования вооруженных сил США генерал Джон Хайтен в интервью CNN заявил, что Китай откровенно нацелен на то, чтобы бросить вызов США и их союзникам и разместить в космосе лазеры, инструменты подавления сигналов и другие технологии. США предупреждают, что Китай ведет разработки в этом направлении, прикрываясь продукцией двойного назначения. В этом они убедились, когда в январе 2007 года Китай сбил ракетой свой старый метеорологический спутник на низкой орбите в 800 км. Далее же, в 2010, 2013 и 2014 годах проводились другие испытания ракет, которые также можно было считать разработкой противоспутникового оружия.

Впрочем, по словам бывшего заместителя директора ЦРУ Джона Маклафлина, в 2008 году США также сбили с орбиты свой неисправный спутник-шпион с помощью ракеты SM-3 на высоте 247 километров. Противоракеты сегодня созданы для уничтожения целей на высоте 2400 километров и ниже, где и находятся орбиты многих разведывательных спутников. Так что говорить о противоспутниковом оружии как только о китайском ноу-хау нет смысла. В 2013 году Китай запустил ракету, которая должна была в научных целях достичь высоты в 10 тысяч километров. По мнению Пентагона, это был тест противоспутникового оружия для поражения целей на высоте до 36 тысяч километров.

**-Каовы же перспективы решения этих проблем?**

-В настоящее время человечество очень сильно зависимо от использования космоса. Здесь речь идет не только об отправке космонавтов и астронавтов. Пилотируемые космические проекты даже не приоритет. Космическое пространство используется для наблюдения за Землей с космических аппаратов, помогающих решению проблем охраны окружающей среды, и в целом, экологии. На низких орбитах функционирует множество метеорологических и навигационных спутников. На таких орбитах также размещены и множество спутников военно-разведывательного назначения. На геостационарных орбитах находятся сотни аппаратов для осуществления телекоммуникационных и навигационных задач. Ко всем этим задачам человечество относится как к чему-то обычному и должному.

Но насколько огромную роль они играют в жизнедеятельности и жизнеобеспечении, мало кто задумывался бы до конца. Даже довольно короткий срок без таких спутниковых систем приведет к отключению линий электроснабжения, навигационных систем, сильному усложнению транспортировки, прекращению работы глобальной банковской системы, интернета и других жизненноважных систем. Все это способно погрузить современное общество в хаос, кардинально нарушить жизнь на Земле. Война в космосе особенно опасна и потому, что это пространство чрезвычайно чувствительно к загрязнениям. То есть чем больше будет загрязнен космос, тем труднее будет использовать его.

По мнению международного юридического консультанта Washington Post Петера Висмера если представить, что одна небольшая страна объявила другой небольшой стране войну и их противостояние вышло на уровень, который Трамп назвал новым «полем боя». Даже эти две страны, если они когда-либо нарастят соответствующие космические возможности, были бы чрезвычайно опасными. Потому что война в космосе почти неизбежно приведет к уничтожению спутников и накоплению обломков, которые останутся на орбите на много десятилетий. А если представить космическую войну между США и Китаем. Такой конфликт будет сокрушительным и навредит не только полуторамиллиардному населению Китая и населению США, но и остальным 7,6 миллиардам жителей Земли. Законы войны существуют для того, чтобы последствия от боевых действий почувствовали лишь те страны, которые воюют. Но война в космосе никогда не сможет гарантировать это. Она повлияет на всю планету и нанесет серьезный вред каждому. США, по мнению автора, пострадали бы больше всего, потому что их зависимость от космоса значительно больше, чем у других стран. Американских спутников на орбите больше чем других.

Тем не менее в интересах всех мировых держав и остального мира гарантировать, что космос никогда не станет полем для войны. Поэтому мировое сообщество должно добиться того, чтобы такие внеземные конфликты не считались ни допустимыми, ни целесообразными. Также стоит согласиться, что война в космосе будет считаться международным преступлением.

**-То, что может произойти в ближайшие 10-20 лет вызывает множество юридических и политических вопросов.**

- Верно, вопросов очень много и все они актуальны: как должны реагировать страны, если их спутник в космосе подвергся нападению; в случае если начнется война в космосе, не станет ли атака на спутники критической для вооруженных сил, но повлечет за собой ответные меры и удары; не сильно ли повлияет на действия военных вывод из строя разведывательных спутников на низких орбитах? И таких вопросов предостаточно.

Если одна страна сможет, например, прервать связь центра и той же авианосной ударной группы, нет никаких гарантий, что такая группа или иные части перестанут действовать в автономном режиме и не предпримут ответных ходов. В худшем случае атака на спутник может быть расценена как подготовка к ядерному удару, что заставит сверхдержавы нанести первыми удар по врагу.

У космических держав, по сути, есть две стратегии. Первая – уничтожать превентивно спецспутники противника и тем самым выступать в роли космического агрессора или ничего не делать, но рисковать потерять всю свою космическую инфраструктуру в ходе первой же космической атаки. Есть еще вариант международных соглашений, которые бы прописывали число спецспутников для каждой страны на орбите и шаги при "кинетическом" или ином воздействии на спутники.

Космос будет милитаризован рано или поздно, и лучше сейчас начать разрабатывать основы договоренностей по контролю за этим процессом. Глава стратегического командования Вооруженных сил США генерал Джон Хайтен, размышляя о возможной войне в космосе, напомнил: "Когда люди расширяют горизонты, всегда происходит конфликт. Был конфликт на Диком Западе, когда мы пошли на Запад. Был дважды конфликт в Европе, вылившийся в ужасные мировые войны. Каждый раз, когда человечество физически расширяется, происходит конфликт. И в данном случае мы должны быть к этому готовы".

**-Разработаны ли правила ведения войны в космическом пространстве.**

- Эксперты утверждают, что рано или поздно в космосе начнутся боевые действия, поэтому необходимо создать правила, которые станут основой Международного договора, регулирующего применение оружия в межзвездном пространстве, сообщает "Диалог. UA". Специалисты из десяти научно-исследовательских институтов, главным среди которых стал Университет Аделаиды, решили создать некий свод правил, которыми будут руководствоваться участники космических военных баталий. Такое постановление станет инструкцией в выборе оружия.

Космическое вооружение может быть достаточно мощным, чтобы нанести вред не только кораблям, но и планете. Чтобы избежать катастрофы на Земле, ученые планируют до 2020 года представить свой проект в Организации Объединенных Наций. Документ станет распоряжением, который будет регулировать виды и средства проведения войны в космосе, определять правовой статус противоборствующих сторон, а также решать другие аспекты и возможные проблемы.

Космос под угрозой. И для международного сообщества самое время сделать все, чтобы эта угроза не была воплощена.

# ELAN

**Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik (Bərpa Agentliyi) Azərbaycan Respublikasının büdcə vəsaiti hesabına Tərtərçayın məcrası boyunca, Tərtər şəhəri və Yuxarı Qarabağ Kanalı arasındakı 20 km uzunluğunda olan ərazidə daşqınlardan müdafiə və məcrabərpa tədbirlərinin həyata keçirilməsi üçün Layihə-smeta sənədlərinin hazırlanması üzrə Açıq Tender müsabiqəsi keçirir.**

Layihənin məqsədi: Tərtərçayın Tərtər şəhəri və Yuxarı Qarabağ Kanalı arasındakı daşqınlara qarşı həssas və fəlakətli daşqın zərərləri ilə nəticələnə bilən 20 km-lik hissəsində daşqınlardan müdafiə və məcrabərpa tədbirlərinin aparılması məqsədilə Layihə-smeta sənədlərinin hazırlanması və ekspertizadan keçirilməsi.

Layihənin hazırlanması 2 mərhələdən ibarətdir: Birinci mərhələdə layihə hazırlanaraq, aidiyyatı orqanlar ilə razılaşmalar yerinə yetirilməlidir. İkinci mərhələdə isə işçi layihə hazırlanaraq, Sifarışçiyə təhvil verilməlidir.

Oferta iki hissədən ibarətdir – ixtisas-texniki və maliyyə təklifi. Təkliflər ardıcıllıqla qiymətləndiriləcəkdir. Belə ki, oferent ixtisas-texniki seçim mərhələsini keçərsə, növbəti mərhələdə onun maliyyə təklifi qiymətləndiriləcəkdir.

Açıq tenderin keçirilməsində əsas məqsəd yuxarıda qeyd olunan tender predmeti üzrə yüksək texniki və maliyyə potensialına malik, peşəkar və səriştəsi olan layihə təşkilatlarını satınalma proseduruna dəvət etməkdir. Tenderin keçirilməsində Azərbaycan Respublikasının «Dövlət Satınalmalar haqqında» Qanununun alqı-satqı şərtləri əsas tutulacaqdır.

İddiaçıların açıq tenderdə iştirak etmək üçün göstəriciləri aşağıdakı meyarları tam əhatə etməlidir:

- İddiaçıların oxşar və analoji işlərdə layihə-smeta sənədlərinin hazırlanması üzrə geniş təcrübəsi olmalıdır (işlərin siyahısı, layihələndirilən ərazilər və icra olunmuş işlərin məbləği göstərilməklə);
- Layihə işlərinin yerinə yetirilməsi üçün iddiaçının müvafiq layihələndirmə səriştəsi, lazımi texniki, maliyyə və professional imkanları olmalıdır;
- Son 2 ildə iddiaçının maliyyə dövriyyəsi hazırlanacaq layihə üzrə təklif etdiyi qiymətdən 2 dəfə çox olmalıdır və bu haqda iddiaçı təsdiqedici sənədləri təqdim etməlidir;
- İddiaçının ən azı 500 min manat məbləğində səlahiyyətli bankdan kredit almaq imkanı olmalıdır və bu imkan haqqında təsdiqedici sənəd təqdim olunmalıdır;
- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə öhdəliklərin olub-olmaması barəsində aidiyyatı orqanlardan rəsmi arayışlar təqdim edilməlidir;
- İddiaçının 2018-ci il üçün təqdim edilmiş mənfəət vergisi bəyannaməsində minimum 200 min manat məbləğində xalis mənfəəti olmalıdır (vergilər orqanı tərəfindən təsdiq edilmiş).

Oferent nəzərdə tutulan işlərin təşkili strukturunu və tətbiq edəcəyi təməl metodologiyalarının qısa təsvirini, qarşıya qoyulan məqsədə çatmaq üçün istifadə edəcəyi vasitələri, üzərinə düşən tapşırıq və problemlərin həlli prinsiplərini, o cümlədən işlərin mərhələli icra müddətlərini təqdim etməlidir.

Təklif edilmiş texniki həllər barədə maraqlı tərəflərin razılığı və layihənin ekspertizası da daxil olmaqla, maliyyə təklifi işin strukturuna və digər məsrəflərə uyğun olaraq, smeta hesabatı, yaxud icra olunacaq əməliyyatları təsvir edən cədvəllər şəklində təqdim edilir.

Bərpa Agentliyi tərəfindən öncə keçirilən tenderlərdə iddiaçıların axırıncı 5 ildə hazırladığı, yüksək keyfiyyətlə və vaxtında qəbul edilmiş və inşa olunmuş layihələrin olması, bir qayda olaraq, nəzərə alınacaqdır.

Tender haqqında hərtərəfli məlumat almaq üçün iddiaçılar aşağıdakı ünvana müraciət edə bilərlər:

Azərbaycan Respublikası, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi 260, III mərtəbə.

Elmir Abdullayev – planlaşdırma üzrə menecer.

**Tel.: (99412)5617097; Faks: (99412) 5617098;**

Azərbaycan Respublikası Satınalmalar üzrə Qanununun 28-ci maddəsinə əsasən, iddiaçılar öz texniki sənədlərini tender prosedurunun başlanmasından əvvəl, yəni 08.10.2018-ci il tarixdə saat 13:00-a kimi Tender Komissiyasına təqdim etməlidirlər. Texniki sənədlərinin açılması həmin gün 08.10.2018-ci il tarixdə saat 14:30-da Bərpa Agentliyinin ofisində keçiriləcəkdir.

Tender iştirakçıları öz texniki sənədlərini bağlı, möhürlənmiş zərflərdə, 2 nüsxədə təqdim etməlidilər (əsli və surəti). Qiymətləndirmə zamanı iddiaçıların ancaq texniki-ixtisas sənədləri yoxlanılacaqdır. Meyarlara cavab verməyən təkliflər kənarlaşdırılacaqdır. Bu yoxlamanın müsbət nəticəsini qazanan iddiaçıların maliyyə təklifləri qəbul ediləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçılar geri qaytarılmayan 1000 manat məbləği Bərpa Agentliyinin hesabına:

**Azərbaycan Respublikası Beynəlxalq Bankı, «ABB Premyer» müştəri xidməti, Kod 805250; VÖEN 9900001881; Müxbir hesabı: AZ03NABZ01350100000000002944; S.W.I.F.T. Kodu: BIC: IBAZAZ 2X, Hesab №-si: AZ32IBAZ38030029449330720120, VÖEN1: 1400294891** köçürməlidirlər.

Möhürlənmiş zərflərdə ixtisas seçimi keçən iddiaçıların maliyyə təklifləri 22 oktyabr 2018-ci il tarixdə, yerli vaxtla saat 13:00-dək Tender Komissiyasına təqdim edilməlidir. İddiaçıların maliyyə təklifləri yuxarıda göstərilən ünvanda 22 oktyabr 2018-ci il tarixdə saat 14:30-da iddiaçıların iştirakı ilə açılacaqdır.

Tenderin maliyyə təklifləri zərflər açıldıqdan sonra 60 təqvim günü müddətində qüvvədə qalır. İddiaçılar tender təklifi ilə birgə 2% məbləğində tender bank zəmanəti təqdim etməlidirlər. Bu zəmanətin qüvvədə qalma müddəti 90 təqvim günü hesab olunur.

**Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin Tender Komissiyası**

## Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsi elan edildi.

Mövzusu "Əhalinin keyfiyyətli enerji təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər" olan müsabiqənin məqsədi Azərbaycanda elektrik enerjisi təsərrüfatının inkişafı, infrastrukturun yenidən qurulması, əhalinin keyfiyyətli və fasiləsiz enerji ilə təminatı sahəsində həyata keçirilən tədbirlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist əməyini stimullaşdırmaqdır.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblərlə **info@kivdf.gov.az; kivdf.info@gmail.com elektron ünvanlarda tanış olma bilərsiniz.**

**Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması:**

**Müsabiqədə,**

**I yer üçün 1 nəfər (1000 manat);**
**II yer üçün 2 nəfər (800 manat);**
**III yer üçün 3 nəfər (600 manat)**

**yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.**

**Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 300 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.**

Qaliblər, həmçinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

# "Atəşgah" Sığorta Qrupu 2019-2021-ci illər üzrə inkişaf strategiyasını təqdim edib

Azərbaycanın aparıcı sığortaçılarından biri olan "Atəşgah" Sığorta Qrupunun (SQ) Direktorlar Şurasının növbəti iclasında 2019-2021-ci illər üzrə inkişaf strategiyası təsdiq edilib.

"Yeni biznes strategiyaya əsasən, "Atəşgah" SQ üç ildən sonra daha effektiv biznes göstəricilərinə malik olacaq. Belə ki, biz sığorta mütəxəssislərinin seçim və təlim proseslərinə, məhsulların inkişafı və modernləşdirilməsinə yatırımlar edəcəyik. Yatırımların vacib istiqamələrindən biri də rəqəmsallaşmadır. Burada prioritet olaraq satışları əsas elektron satış kanalına çevirmək, şirkətin İT infrastruktur bazasını təkmilləşdirməkdir". Bunu "Atəşgah" Sığorta Şirkətinin İdarə heyətinin sədri Azər A.Əliyev adı çəkilən inkişaf strategiyasını təqdim edərkən bildirib.

Onun sözlərinə görə, yeni strategiya sığorta qrupunun əməkdaşlarından ibarət işçi qrupu tərəfindən hazırlanıb və ümumilikdə, beş əsas istiqaməti özündə ehtiva edir:

1. İnformasiya texnologiyaları infrastrukturunun inkişafı, şirkətlər üzrə rəqəmsallaşdırılma səviyyəsinin yüksəldilməsi.
2. Biznes proseslərin təkmilləşdirilməsi.
3. Müştəri xidmətləri səviyyəsinin yüksəldilməsi.
4. İnsan kapitalına investisiya.
5. Yeni müştəriyönümlü sığorta məhsullarının yaradılması.

Şirkət rəhbəri "Atəşgah" SQ-nin Azərbaycanda əmlak və avtomobil sığortası üzrə ən böyük müştəri portfeli ilə pərakəndə sığortada lider olmaq, eləcə də korporativ sığorta seqmenti üzrə TOP 3-lükdə mövqeyini möhkəmlətmək kimi iddialı hədəfləri qarşısına qoyduqlarını bildirdi.

6-7 sentyabr 2018-ci il tarixində baş tutan iclas çərçivəsində 2018-ci ilin 6 aylıq maliyyə hesabatı, əmlak, şəxsı sığorta və tibbi sığorta növləri üzrə tənzimlənmə fəaliyyətinə dair hesabatlar da dinlənilib.

Məlumat üçün bildirək ki, "Atəşgah" SQ-nin 2018-ci ilin yanvar-iyun ayları ərzində topladığı sığorta haqlarının ümumi həcmi 48 milyon manat təşkil edib.

# AtaBank ASC "VISA International" şirkəti ilə birgə "VİZA göstər, VİSA Al" kampaniyasına start verdi




AtaBank "VISA International" şirkəti ilə birgə yeni kampaniyaya start verib. Kampaniya çərçivəsində xarici ölkələrə səyahət etmək üçün VİZA almış müştərilər, AtaBank-dan pulsuz VISA Classic, VISA Gold plastik kartına sahib olmaq imkanı əldə edəcəklər. Bunun üçün sadəcə AtaBank-ın Baş ofisinə və ya istənilən filialına şəxsiyyət vəsiqəsi və xarici pasportla yaxınlaşaraq qüvvədə olan vizanı bank əməkdaşına göstərmək kifayətdir. Hədiyyə veriləcək plastik kartın növü müştərinin səyahət edəcəyi ölkədən və vizanın müddətindən asılıdır. VISA Classic, VISA Gold kartı müştərilərə yalnız ABŞ dolları və ya AVRO valyutasında açıla bilər.

Kampaniya yalnız fiziki şəxslərə şamil olunur və ilin son iş günü 28 dekabr 2018-ci il tarixinədək qüvvədə olacaq.

VISA kartlarından dünyanın 200-dək ölkəsində istifadə etmək mümkündür. Bu kartlardan istifadə edərək müştərilər həm ölkədaxilində həm də ölkəxaricində POS-terminal vasitəsi ilə və ya online alış-veriş edə, AtaBank-ın Ata-Net İnternet və ya Mobil Bankçılıq əlavəsinə daxil olaraq müxtəlif bank əməliyyatlarını həyata keçirə bilərlər.

WhatsApp istifadəçiləri AtaBank-ın WhatsApp əlavəsinə bağlı olan 050 9999136 telefon nömrəsi ilə əlaqə yaradaraq VISA plastik kart məhsulları və kampaniya haqqında istənilən məlumatı operativ əldə edə bilərlər.

# Bakcell növbəti dəfə sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq "SociallyDevoted" sertifikatı ilə təltif olunub.

Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycandakı şirkətlərin "Facebook" şəbəkəsində 2018-ci ilin II rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, göstərilən müddət ərzində Bakcell şirkəti özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki, Bakcell şirkəti 2018-ci ilin birinci rübü ərzində də abunəçi sorğularının 100%-ni cavablandıraraq göstərdiyi yüksək nəticəyə görə xüsusi sertifikatla təltif olunmuşdur. Həmçinin, 2017-ci ildə "Bakcell" dörd dəfə "SociallyDevoted" sertifikatına layiq görülüb. "Bakcell"in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

# "Azsığorta"dan whatsApp ilə sığorta sifarişi

"Azsığorta" zamanına qənaət etmək istəyən şəxslərə whatsApp ilə onlayn sığorta sifarişindən faydalanmağı təklif edir.

Sığortanızı whatsAppla rahatlıqla əldə etməklə yanaşı, nömrə dəyişikliyi, hadisə barədə məlumat, şikayət və təkliflərinizi bildirmək, həmçinin şirkətin təqdim etdiyi digər xidmətlərdən yararlana bilərsiniz!

Xidmətdən faydalanmaq üçün http://bit.ly/whatsappazs linkinə keçid edə bilər və ya 050 290 12 10 nömrəsini telefonunuza qeyd edərək yaza bilərsiniz.

AZSIĞORTA ölkənin ən stabil sığorta şirkətlərindən biridir. Fitch beynəlxalq reytinq agentliyi şirkətin etibarlığını təsdiq edərək, ona "stable" proqnozu ilə "B" reytinqini təyin etmişdir.

# Azercell-dən GəncOL8 tarif paketinə qoşulan abunəçilərinə HƏDİYYƏ İNTERNET

Endirimli tarif paketləri, unikal xidmətləri və sərfəli kampaniyalarla yay ayları ərzində hər kəsi sevindirən Azərbaycan rabitə bazarının lider mobil operatoru Azercell Telekom dərs ilinin başlanması ilə əlaqədar abunəçilərinə yeniliklər vəd edir. 12.09.18–15.12.18 tarixlərində keçiriləcək yeni kampaniya çərçivəsində GəncOL 8 tarifinə qoşulan hər bir kəs Azercell-dən AYLIQ 1GB HƏDİYYƏ əldə edəcək. Abunəçilər bu pulsuz internet paketindən ayda 1 dəfə olmaqla növbəti 3 ayda yararlana biləcəklər.

GəncOL8 tarif paketinə qoşulmaq üçün SimSim abunəçiləri G8 yazıb 7575-ə göndərməlidirlər. Beləliklə, ayda cəmi 8 AZN ödəyib GəncOL8 tarif paketinə qoşulmaqla abunəçilər 4GB əvəzinə 5GB internet, üstəlik, GəncOL abunəçiləri arasında 400 pulsuz dəqiqə, şəbəkədaxili 400 pulsuz sms əldə edəcək.

Gənc OL8 tarifinin üstünlükləri bununla bitmir. Bu tarifə qoşulmaqla Azercell müştəriləri sərfəli tarifdən yararlanmaqla yanaşı, müxtəlif endirimlər və kampaniyalardan da faydalana bilər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə akademik Ramiz Məmmədova qardaşı
**RAFİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

Professor Fuad Hacızadə və professor Elşən Hacızadə akademik Ramiz Məmmədova qardaşı
**RAFİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

Professor Elşən Hacızadə Ədalət Şamoyevə anası
**ŞÖLƏ ŞAMOYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

Professor Elşən Hacızadə Əli Məmmədova bacısı
**ŞÖLƏ ŞAMOYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

**ALLAH RƏHMƏT ELƏSİN!**


**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Dİzayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**